(Ya Rəsulum!) Şübhəsiz ki, sənin firqə-firqə olub dinini parçalayanlarla heç bir əlaqən yoxdur. Onların işi Allaha qalmışdır. (Allah) sonra (qiyamətdə) onlara nə etdiklərini bildirəcəkdir!

*(Qurani-Kərim, Ənam, 159)*

## Prezident İlham Əliyev: İslamı terrorizmlə əlaqələndirmək tamamilə qəbuledilməzdir

Azərbaycanın 600-dən çox tarixi və memarlıq abidəsi erməni silahlı qüvvələri tərəfindən tamamilə məhv edilib. Daxilində 40 min eksponat sərgilənən 22 muzey məhv edilib. O cümlədən bizim tarixi irsimizə aid olan qiymətli nümunələr muzeylərdən oğurlanaraq sonradan müxtəlif hərraclarda satılıb. Erməni işğalçıları tərəfindən 10 məscid yerlə-yeksan olunub.

səh. 3

www.scwra.gov.az

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

# Cəmiyyət və Din

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 11 (292) / NOYABR 2015-ci il

# Azərbaycan Prezidenti İlham Əliyev ISESCO-nun baş direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycrini qəbul edib.**



ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri rəhbərlik etdiyi təşkilatın XII Baş konfransının və İcraiyyə Şurasının növbəti iclasının Bakıda keçirilməsinə göstərdiyi dəstəyə və yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Qonaqların Bakı ilə ilk tanışlıqdan valeh olduqlarını vurğulayan Əbdüləziz Osman əl-Tuveycri paytaxtda gedən sürətli inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını deyib.

ISESCO-nun XII Baş konfransının və İcraiyyə Şurasının növbəti iclasının Bakıda keçirilməsinin önəmini vurğulayan dövlətimizin başçısı yüksək səviyyəli qonaqların ölkəmizlə yaxından tanış olmaları üçün tədbirin yaxşı imkan yaratdığını bildirib.

Görüşdə Azərbaycan ilə ISESCO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirilib, bu əməkdaşlığın daha da genişləndiriləcəyinə əminlik ifadə olunub. Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## *Prezident İlham Əliyev din xadimlərini təltif edib*

Din xadimlərinin və dini icma rəhbərlərinin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Beynəlxalq tolerantlıq günü münasibətilə, Azərbaycanda multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

**Allahşükür Hümmət oğlu Paşazadə**
**Aleksandr Gennadyeviç İşein**
**Vladimir Fekete**
**Milix İlxananoviç Yevdayev**
**Gennadi Konstantinoviç Zelmanoviç**
**Robert Baqratoviç Mobili**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 16 noyabr 2015-ci il.*

## Azərbaycan multikulturalizminin təbliği insanlığa töhfədir



səh. 4

## Mübariz Qurbanlı: "Müxtəlif dini radikal qrupların istifadə etdiyi atributları qadağan edən norma yaratmalıyıq"

səh. 6-7

## "Azərbaycanın inkişafına mane olmaq istəyən qüvvələr ölkədə dini siyasiləşdirməyə cəhdlər göstərirlər"

səh. 8

## "Tolerantlıq: milli kimliklə vəhdət" mövzusunda "dəyirmi masa"-konfrans keçirilib



səh. 4

*BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR*

## ZAQATALA

səh. 12-13

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi: Falçılara və cadugərlərə qarşı qanun sərtləşdirilməlidir

səh. 14




## Stokholmda "Multikulturalizm və dinlərarası tolerantlıq: Azərbaycanın təcrübəsi və onun Avropa üçün əhəmiyyəti" mövzusunda konfrans keçirilib

# Kamal Abdullayev: Multikultural təhlükəsizlik prinsipləri Azərbaycan üçün digər təhlükəsizlik doktrinalarının prinsipləri qədər vacib və zəruridir

Noyabrın 18-də Azərbaycanın İsveçdəki səfirliyinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) və İsveçin Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunun (İSDP) birgə təşkilatçılığı ilə Stokholm şəhərində "Multikulturalizm və dinlərarası tolerantlıq: Azərbaycanın təcrübəsi və onun Avropa üçün əhəmiyyəti" mövzusunda konfrans keçirilib.

Konfransda Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, BBMM-in Himayəçilər Şurasının sədri Kamal Abdullayevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Nümayəndə heyətinə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Gennadi Zelmanoviç, BBMM-in İcraçı direktoru Azad Məmmədov daxildir.

Konfransın açılışında Azərbaycan nümayəndə heyətini və isveçli qonaqları salamlayan Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunun direktoru Svante Kornel bu yaxınlarda Amerika yəhudiləri nümayəndə heyətinin Azərbaycana səfərini və bu səfərin nəticəsi olaraq tanınmış "Times" jurnalında dərc olunan məqalədə nümayəndə heyətinin təəssüratlarını konfrans iştirakçılarına xatırladıb.

Azərbaycanın İsveçdəki səfiri Adış Məmmədov İsveçdən və Azərbaycandan gələn qonaqları salamlayaraq bu tədbirin əhəmiyyəti barədə danışıb. Səfir konfransın məqsədinə toxunaraq bildirib ki, böyük tarixə malik olan Azərbaycanın tolerantlıq ənənəsi, dövlət və din arasındakı münasibət, həmçinin hökumətin din sahəsindəki siyasəti ilə bağlı reallıqlar barədə məlumatların İsveç cəmiyyəti ilə bölüşdürülməsi çox əhəmiyyətlidir. Bildirib ki, Stokholmda belə bir konfransın təşkilində məqsəd ölkəmizdə və cəmiyyətimizdə uzun illər formalaşmış tolerantlıq təcrübəsini, Azərbaycandakı dövlət-din münasibətləri ilə bağlı vəziyyəti İsveç ictimaiyyətinə çatdırmaqdır. O deyib ki, Azərbaycan xalqının Ümummilli Lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin böyük dövlətçilik təcrübəsi və titanik səyləri nəticəsində Azərbaycanda tolerantlıq mühiti qoruna bildi, ölkədə yaşayan bütün xalqlar arasındakı yüz illərə söykənən dostluq və birgəyaşayış münasibətlərinin ritmi pozulmadı. Bu gün isə Azərbaycan hakimiyyəti müasir dövrün tələblərinə uyğun olaraq tolerantlıq ənənələrini daha da inkişaf etdirir. Diplomat Azərbaycanın multikulturalizm məsələləri ilə məşğul olan dövlət rəsmilərinin və dini liderlərin bu tədbirə təşrif buyurduqlarını və Azərbaycanda tolerantlıq mövzusunda çıxış edəcəklərini diqqətə çatdırıb. O deyib ki, Azərbaycanın tolerantlıq siyasəti yalnız ölkənin hüdudları ilə məhdudlaşmır. Heydər Əliyev Fondunun nəinki Şərqdə, habelə Avropa ölkələrində kilsə və dini abidələrin bərpa və təmir olunması sahəsində gördüyü işlər buna bariz nümunədir. Bu xeyriyyə işləri Azərbaycan xalqının və hökumətinin dünya mədəni irsinə və dini-mədəni dəyərlərə verdiyi töhfədir.

Daha sonra Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, BBMM-in Himayəçilər Şurasının sədri Kamal Abdullayev çıxış edib.

"Multikultural təhlükəsizliyin təmin olunmasında Azərbaycan Respublikasının təcrübəsi" mövzusunda məruzəsini konfrans iştirakçılarının diqqətinə çatdıran akademik Kamal Abdullayev təhlükəsizlik məsələlərindən danışıb. O, ümumi, nəqliyyat, enerji və qida təhlükəsizliyi kimi multikultural təhlükəsizliyin də eyni şəkildə dövlət səviyyəsində qorunmasının vacibliyini qeyd edib: "Azərbaycan müxtəlif xalqların və etnik qrupların dinc, dostluq, qardaşlıq şəraitində yaşadığı, sevinci və kədəri birgə bölüşdüyü məkandır. Burada yaşayan bütün xalqlar və etnik qruplar Azərbaycanı öz ortaq vətənlərinə çevirə biliblər. Bu gün Azərbaycana əsassız torpaq iddiası ilə çıxış edən separatçılarla eyni millətdən olan, ancaq bu separatçıların iddialarını qəbul etməyən Azərbaycan erməniləri də buranı öz vətənləri sayırlar. Bir kənd qədər sakini olan, dili və etnik kimliyi bu kənddən başqa heç bir yerdə təmsil olunmayan xınalıqlılar da Azərbaycana məxsusdur. Bütün bu xalqların dil və mədəni zənginliklərini Azərbaycan dövləti öz zənginliyi, öz gücü sayır. Ümummilli Lider Heydər Əliyev deyirdi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir". Azərbaycanda yaşayan bütün xalqların və etnik qrupların nümayəndələrini bu gün müstəqil Azərbaycanın hər bir sahəsində – siyasətdə, iqtisadi zonada, təhsildə, mənəvi həyatda, bir sözlə bütün sahələrdə görmək mümkündür. Multikultural təhlükəsizlik prinsipləri Azərbaycan kimi kiçik, amma dərin kökə və tarixə malik ölkələr üçün digər təhlükəsizlik doktrinalarının prinsipləri qədər vacib və zəruridir. Burada sadalanan prinsiplərin mənim Vətənimdə bərqərar olması isə Azərbaycan vətəndaşlarının birgə səyi və əməyi nəticəsində mümkün olub. Kənar ideoloji müdaxilələrin qarşısının alınması, müxtəlif separatçılıq meyillərinin minimuma qədər zəifləməsi Azərbaycanın milli rəngarəngliyinin monolitliyini sübut edir".

Tədbirdə Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək Azərbaycanın tolerantlıq sahəsində böyük təcrübəyə malik olduğunu deyib və bildirib ki, bu təcrübənin təşviq olunması universal bəşəriyyət dəyərləri baxımından çox zəruridir. Şeyxülislam dini və mənəvi dəyərlərin, mədəniyyətlərarası dialoq, həmçinin tolerantlıq ənənələrinə göstərilən hörmətin ölkəmizdə yüksək səviyyədə olmasından fəxr hissi duyduğunu qeyd edib. O deyib ki, tolerantlığı yüksək mədəni dəyər hesab edən Ulu Öndər Heydər Əliyevin dinindən və milliyyətindən asılı olmayaraq bütün vətəndaşları ümumi azərbaycançılıq ideyası altında birləşdirmək istiqamətində apardığı müdrik siyasət hazırda Prezident İlham Əliyev tərəfindən ən yüksək səviyyədə davam etdirilir.

Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, ölkəmizdə fəaliyyət göstərən ənənəvi dini icmaların rəhbərlərinin bir neçə gün öncə Beynəlxalq Tolerantlıq Günü münasibətilə dövlət başçısı tərəfindən Fəxri diplomla mükafatlandırılması dövlətin bütün dinlərə göstərdiyi bərabər qayğı və diqqətin göstəricisidir. O, Azərbaycanın müxtəlif mədəniyyətlər arasında mənəvi körpü olduğunu və gələcəkdə də bu mənəvi rolu icra edəcəyini bildirib.

Çıxışı Ümummilli Lider Heydər Əliyevin "Ölkənin çox millətli olması onun zənginliyidir" sözləri ilə başlayan Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein Azərbaycanın Konstitusiyasına əsasən, bütün dinlərin bərabər olduğunu və buna ciddi əməl edildiyini vurğulayıb. Bütün dinlərin nümayəndələrinin Azərbaycanda həm dövlət, həm də ictimai strukturlarda təmsil olunduğu qeyd edilib. Bildirilib ki, Azərbaycanın əsas özəlliklərindən biri milli məhəllələrin və qəsəbələrin olmamasıdır. Eyni küçədə müxtəlif dini icmaların nümayəndələri yaşayır və birlikdə müxtəlif dini bayramları və mərasimləri qeyd edirlər. Azərbaycanda dini zəmində münaqişələrin olmadığını xatırladan Aleksandr İşein ölkəmizdə yaşadığımız həyat tərzinin məhz indi multikulturalizm və tolerantlıq adlandırıldığını diqqətə çatdırıb.

Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayev çıxışını Azərbaycandakı gündəlik həyatları üzərində qurub. O qeyd edib ki, yəhudi icmasına hədiyyə olaraq bir müsəlman dövlətində Prezidentin Sərəncamı ilə sinaqoqun tikintisi və onun saxlanılması üçün Prezident Fondundan maliyyə vəsaiti ayrılıb. Antisemitizmin bütün dünyada tüğyan etdiyi dövrdə Azərbaycan bu bəladan azad oldu. Hazırda Azərbaycanda yeddi sinaqoq, iki yəhudi orta məktəbi, üç uşaq bağçası, bir kollec-işiva fəaliyyət göstərir.

Ordinari Vladimir Fekete Azərbaycanın unikal dövlət olduğunu və burada əcnəbi və ya keşiş olduğuna görə heç vaxt pis münasibətlə rastlaşmadığını, əksinə, respublikanın hər bir guşəsində hörmətlə qarşılandığını və yerli insanların xarici dövlətlərin həyatı ilə yaxından maraqlandığını bildirib. Multikulturalizm və tolerantlığın gələcəyinə hələ də şübhə ilə yanaşan siyasətçiləri və insanları Azərbaycana dəvət edən ordinari Azərbaycan dövlətinin adi vətəndaşlar ilə birlikdə yaratdığı bərabərhüquqlu cəmiyyətdən dərs götürülməsini məsləhət bilib.

Avropa Yəhudilərinin Bakı Dini İcmasının sədri Gennadi Zelmanoviç yəhudi məktəbi və uşaq bağçasının tikintisinə hələ Ümummilli Lider Heydər Əliyevin vaxtında icazə verildiyini, müraciət əsasında dövlət başçısının Sərəncamı ilə tikinti üçün torpaq sahəsinin ayrıldığını və açılış mərasimində Prezident İlham Əliyevin xanımı Mehriban Əliyeva ilə birgə iştirak etdiyini xatırladıb. Bildirib ki, Azərbaycanda mövcud olan bu şəraitin əsas səbəbi ölkədə yaşayan bütün millətlərin nümayəndələrinin Azərbaycanın inkişafına töhfə verməsidir. Digər millətlərin və dini konfessiyaların nümayəndələrinin dövlətin və mədəniyyətin bütün sahələrində təmsil olunduqları bildirən G.Zelmanoviç Bakı əsilli yəhudi alimin – Lev Landaunun Nobel mükafatı laureatı olmasını fəxr hissi ilə qeyd edib. Vurğulayıb ki, Azərbaycanı fərqləndirən əsas cəhətlərdən biri burada yaşayan bütün vətəndaşların dövlətin mənafeyi üçün çalışmalarıdır.

Bu yaxınlarda Fransaya səfəri zamanı Parisdəki yerli yəhudi icmasının lideri ilə görüşünü xatırladan Zelmanoviç Azərbaycandan fərqli olaraq, Avropada yaşayan yəhudilərin təhlükəsizliyinin təmin olunmadığını ürək ağrısı ilə qeyd edib.

Sonra "Multikulturalizmin Azərbaycan və İsveç modelləri: Müqayisəli təhlil" mövzusuna həsr olunan panel keçirilib.

⇨ 3

# Stokholmda "Multikulturalizm və dinlərarası tolerantlıq: Azərbaycanın təcrübəsi və onun Avropa üçün əhəmiyyəti" mövzusunda konfrans keçirilib

2 ⇦ Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunun direktoru Svante Kornelin moderatorluğu ilə təşkil olunan paneldə çıxış edən İsveç parlamentinin sabiq üzvü, ATƏT Parlament Assambleyasının keçmiş prezidenti Qoran Lenmarker ATƏT-də çalışdığı müddət ərzində Azərbaycanın əksər rayonlarına və qaçqın düşərgələrinə tez-tez səfər etdiyini bildirib. Azərbaycanın son 15 ildə çox inkişaf etdiyini deyən və bu səbəbdən Azərbaycan ilə İsveç arasında paralel aparan direktor ölkəmizin regional mərkəz rolunu oynadığını bildirib. O, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq ATƏT-in Minsk qrupunun son illər elə də effektiv olmayan fəaliyyəti fonunda iki ölkə arasında dialoqun yaradılmasının vacibliyini vurğulayıb. S.Kornel Azərbaycanın həm özü, həm də region üçün vacib sayılan multikulturalizm sahəsində təşəbbüsü öz üzərinə götürdüyünü vurğulayıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Azad Məmmədov Mərkəzin yaradılması və fəaliyyət istiqamətləri barədə konfrans iştirakçılarına məlumat verib. Mərkəzin yaradılmasının Azərbaycanın multikulturalizm ruhunun bariz nümunəsi olduğunu deyən A.Məmmədov vurğulayıb ki, multikulturalizm sahəsində qədim ənənəyə malik ölkədə belə bir mərkəzin yaradılması heç kimi təəccübləndirmədi. Sonra direktor Mərkəzin gördüyü işlər, xüsusilə bir sıra xarici dövlətlərin tanınmış ali təhsil müəssisələrində Azərbaycan multikulturalizmi modelinin tədris olunması və Mərkəz tərəfindən Azərbaycanda yay məktəblərinin təşkil edilməsi barədə məlumat verib.

İsveç Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Mərkəzi Asiya Departamentinin baş direktoru Stefan Qulqren çıxışında diplomatiyanın rolu barədə danışıb. Bildirib ki, diplomatiyanın əsas məqsədi bizi birləşdirən ümumi cəhətləri taparaq üzə çıxarmaq, bizi ayıran cəhətləri isə aradan qaldırmaqdır. Amma bu o demək deyil ki, biz bir-birinə bənzər insanlara çevrilməliyik, belə olarsa, dünya çox maraqsız olar. Müxtəliflik çox vacib dəyərdir, amma bu müxtəliflik münaqişələrin və dözümsüzlüyün yaranmasına gətirib çıxarmamalıdır. Bunun üçün biz bir-birimiz barədə daha çox şey öyrənməli və bir-birimizi daha yaxşı başa düşməliyik. Bu tədbir məhz elə bu məqsədə qulluq edir və biz bu gün Azərbaycan və onun tolerantlıq təcrübəsi barədə çox şey öyrənə bildik. Düşünürük ki, bu cür tədbir Azərbaycanda da təşkil olunmalı və biz İsveçin bu sahədəki təcrübəsi barədə Azərbaycan ictimaiyyətinə daha ətraflı məlumatlar çatdırmalıyıq.

Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunun direktoru Svante Kornel Azərbaycandan olan dini icma rəhbərlərinin birlikdə dünyanın müxtəlif ölkələrinə səfər edərək ölkənin təcrübəsini təşviq etdiklərini bildirib. O deyib ki, bəzi təşkilatlar Azərbaycanı tənqid etməmişdən əvvəl burada mövcud olan sistemlə daha yaxından tanış olmalıdırlar. Dünyada suverenliyin iki formasının mövcud olduğunu deyən və həmin formalar barədə məlumat verən S.Kornel vurğulayıb ki, Avropa ölkələrində və digər qonşu ölkələrdə baş verənləri təhlil etdikdə Azərbaycanda yaradılmış suverenlik formasının daha düzgün olduğu aydın görünür. Qonşu ölkələrdə dini-etnik milliyətçilik ideyalarının vüsət alması fonunda Azərbaycanda multikulturalizm və tolerantlıq ideyaları inkişaf edir və bizim məqsədimiz bunu olduğu kimi qoruyub saxlamaqda Azərbaycana köməklik göstərməkdir.

Konfransın ikinci hissəsində İsveçin "İnanclar arası dialoq mərkəzinin" əməkdaşı Reverend Helene Engell İsveçdəki din-cəmiyyət əlaqələrinin tarixindən danışıb.

Konfrans Azərbaycanın İsveçdəki səfirliyinin təşkil etdiyi ziyafətlə sona çatıb.

Konfransda iştirak edən Azərbaycan nümayəndə heyəti İsveçin mədəniyyət naziri və ölkə parlamentinin sədri ilə görüşüb, əlaqələrin daha sıx şəkildə qurulması ilə bağlı müzakirələr aparıblar.




# Prezident İlham Əliyev: İslamı terrorizmlə əlaqələndirmək tamamilə qəbuledilməzdir

*(əvvəli 1-ci səhifədə)*

Buna baxmayaraq, siz bu gün Bakının mərkəzində Azərbaycan hökuməti tərəfindən bərpa olunmuş erməni kilsəsini görə bilərsiniz. Bu, multikulturalizmə olan yanaşmada bir fərqdir, bu, dini tolerantlığa olan yanaşmada bir fərqdir və bu, bir daha terrorizmin heç bir dinə, milli mənsubiyyətə aid olmadığını nümayiş etdirir.

Bu fikirləri Prezident İlham Əliyev UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumundakı çıxışında bildirib.

İslamı terrorizmlə əlaqələndirməyin tamamilə qəbuledilməz olduğunu vurğulayan dövlətimizin başçısı deyib: "Mən müsəlman ölkəsini, erməni terrorizmindən, işğalından, tarixi abidələrinin məhv edilməsindən əziyyət çəkən bir ölkəni təmsil edirəm. Əlbəttə ki, biz torpaqlarımıza qayıdacağıq, şəhərlərimizi bərpa edəcəyik, orada yeni məktəb və xəstəxanalar inşa edəcəyik, lakin tarixi abidələrimizi bərpa edə bilməyəcəyik. Ermənilər bizim tarixi irsimizi məhv ediblər, lakin onlar bizim iradəmizi, evlərinə geri qayıtmaq istəyən qaçqın və məcburi köçkünlərin, Bakıda və Azərbaycanın digər şəhərlərində dünyaya gələn, öz tarixi torpaqlarını heç vaxt görməyən, lakin doğma torpaqlarına qayıtmaq üçün qəlbində böyük iradə ilə yaşayan insanların nəvə və nəticələrinin iradəsini məhv edə bilməzlər. Onlar geri qayıdacaqlar! Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hər şeyi edəcəyik. Bir daha qeyd etmək istəyirəm ki, beynəlxalq hüquq normaları Azərbaycanın mövqeyini tamamilə dəstəkləyir".

# "Azərbaycanın tolerantlıq modeli İsveç üçün maraqlıdır"

Bu fikri Stokholmda keçirilən "Multikulturalizm və dinlərarası tolerantlıq: Azərbaycanın təcrübəsi və onun Avropa üçün əhəmiyyəti" mövzusunda konfransın iştirakçısı, İsveçin Azərbaycanda yeni təyin olunmuş səfiri İnqrid Tersman AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində deyib.

İnqrid Tersman belə bir konfransda iştirak etməsindən çox şad olduğunu bildirib. O, Azərbaycanda gedən proseslərlə bağlı çox maraqlı faktlar eşitdiyini diqqətə çatdırıb. "Bu tədbirə qatılan insanların sayını nəzərə alsaq, multikulturalizm məsələsinin İsveç ictimaiyyəti üçün necə maraq kəsb etdiyi görərik. Hesab edirəm ki, belə tədbirlərdə Azərbaycan və İsveç öz müsbət təcrübələrini bölüşə bilərlər", - deyə İ.



Tersman əlavə edib. O, son vaxtlar dünyanın bir çox ölkələrində qeyri-tolerantlıq hallarının çoxaldığını, cəmiyyətlərdə mənfi tendensiyaların artdığını vurğulayaraq, belə bir vaxtda Azərbaycanın tolerantlıq və multikulturalizm modelinin daha dərindən öyrənilməsinin əhəmiyyətini qeyd edib.

# Azərbaycan multikulturalizminin təbliği insanlığa töhfədir

İsveçə səfərdən qayıdan Azərbaycan nümayəndə heyətinin üzvü, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru, professor Azad Məmmədov səfərin yekunları ilə bağlı AZƏRTAC-a müsahibə verib.

A.Məmmədov deyib ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Azərbaycan Respublikasının İsveç Krallığındakı səfirliyi və İsveçin Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunun (ISDP) birgə təşkilatçılığı ilə noyabrın 18-dən 20-dək Stokholm şəhərində konfrans və müxtəlif görüşlər keçirilib.

İcraçı direktor qeyd edib ki, səfərin əsas məqsədi dünyamızın terrorla, islamofobiya, ksenofobiya ilə təhdid olunduğu bir zamanda bir çox dövlətlərə nümunə olacaq birgəyaşayışın Azərbaycan modelini, Azərbaycan multikulturalizmi və tolerantlığını İsveçdə təqdim etmək, həmçinin bu istiqamətdə qarşılıqlı təcrübə mübadiləsi aparmaq idi.

Noyabrın 18-də "Multikulturalizm və dinlərarası tolerantlıq: Azərbaycanın təcrübəsi və onun Avropa üçün əhəmiyyəti" mövzusunda konfrans keçirildi. Konfransda ölkəmizi təmsil edən nümayəndə heyəti, Azərbaycanın İsveçdəki səfiri Adış Məmmədov, İsveçin Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunun direktoru Svante Kornel, İsveç parlamentinin sabiq üzvü, ATƏT Parlament Assambleyasının keçmiş prezidenti Qoran Lenmarker, İsveç Xarici İşlər Nazirliyinin baş direktoru, Şərqi Avropa və Mərkəzi Asiya Departamentinin rəisi Stefan Qulqren və İsveçin İnanclararası Dialoq Mərkəzinin direktoru Helene Enqel çıxış etdilər. Konfransdan sonra Azərbaycan nümayəndə heyətinin İsveçin mədəniyyət və demokratiya naziri ilə görüşü təşkil edildi. Görüşdə nazir xanım Alice Bah Kuhnke ilə yanaşı, nazirliyin bir neçə yüksək vəzifəli əməkdaşı da iştirak edirdi.

*(davamı 4-cü səhifədə)*

# Azərbaycan multikulturalizminin təbliği insanlığa töhfədir





(əvvəli 3-cü səhifədə)

Noyabrın 19-da nümayəndə heyəti İsveç parlamentinin Konstitusiya komitəsinin sədri tərəfindən qəbul olundu. Görüşdə Komitə sədri Andreas Norlen ilə yanaşı, İsveç parlamentində təmsil olunan Sosial Demokratlar Partiyası, Xristian Demokratlar Partiyası, İsveç Demokratlar Partiyası və Yaşıllar Partiyasının üzvləri də iştirak edirdilər.

Səfərin sonuncu günü nümayəndə heyəti İsveç Xarici İşlər Nazirliyində oldu. Görüşdə multikulturalizmin Azərbaycan və İsveç modeli, ölkələrimiz və xalqlarımız arasındakı münasibətlərin daha da möhkəmləndirilməsi, mədəni və multikultural müstəvidə təcrübə mübadiləsinin aparılmasının vacibliyi ilə bağlı fikir mübadiləsi aparıldı.

A.Məmmədov deyib: "Təbii ki, qədim tarixi köklərə və dövlətçilik ənənələrinə malik olan İsveç Krallığının da özünə xas tolerantlıq və multikulturalizm təcrübəsi var. Lakin buna baxmayaraq, ölkəmizdən olan nümayəndə heyətində təmsil olunan müxtəlif dini konfessiya rəhbərlərinin mehriban dostluğu, Azərbaycan dövləti və dövlətçiliyi, Azərbaycan xalqının sülh və əmin-amanlıq içərisində yaşaması naminə ortaya qoyduqları yekdil mövqe hər addımda onların heyrətinə səbəb olurdu.



Dünyada sülh və sabitliyin davamlı olması, münaqişə ocaqlarında tez bir zamanda sülhə nail olunması, milliyyətindən, dilindən, dinindən, irqindən asılı olmayaraq bütün bəşəriyyətin əmin-amanlıq içərisində yaşaması üçün səylər göstərən beynəlxalq təşkilatlar, dünyanın aparıcı güc dövlətləri də daim müsbət təcrübənin paylaşılmasının tərəfdarıdır və onlar hər zaman öz tövsiyələrində buna üstünlük verirlər. Bu mənada, tarixən özəlliyi və birgəyaşayışa müsbət təsiri ilə seçilən tolerantlığın Azərbaycan modelinin, həmçinin Azərbaycan multikulturalizminin davamlı şəkildə öyrənilməsi və dünyada təbliği özü-özlüyündə dünya insanını sülhə çağırışa töhfədir.

Sevindirici məqam ondan ibarətdir ki, Prezident İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət, dünya dövlətləri ilə və beynəlxalq təşkilatlarla yüksək səviyyədə qurulan münasibətlər, dünyada sülhün təmin olunmasına, ətraf mühitin və dünya inciləri olan maddi-mədəniyyət abidələrinin qorunmasına ölkəmizin verdiyi töhfələr, Azərbaycanın təkcə neftlə zəngin ölkə deyil, həm də insanpərvərlik nümunəsi olan əhali resursu ilə zəngin olması kimi məqamlardan İsveçdə də xəbərdardırlar. Ölkələrimiz arasında müxtəlif müstəvilərdə olan qarşılıqlı mübadilə proqramları isveçli siyasət və hökumət adamlarında Azərbaycana böyük maraq yaradıb. Görüşlərdə iki ölkənin din xadimləri gələcəkdə bir-biri ilə əlaqələrinin gücləndirilməsini xüsusi qeyd edirdi.

Azərbaycan və onun bu gün Avropa ilə bölüşə biləcəyi multikultural mənəvi dəyərlərdən, Azərbaycan Prezidentinin Avropanın bu ağır vaxtında Fransaya gedib son terror hadisələri ilə bağlı şəxsən başsağlığı verməsindən ətraflı danışdılar. İsveçlilərin bu məsələlərə böyük hörmətlə yanaşmalarını qeyd etmək olar. Bu tipli konfrans və görüşlərin keçirilməsi Azərbaycanın İsveçdən daha da maraqlı görünməsinə səbəb olacaq.

Keçirilən görüşlərdə qarşılıqlı səfərlərin həyata keçirilməsi ilə bağlı da müzakirələr aparıldı. Görüşlərin birində İsveçin mədəniyyət və demokratiya nazirinin, din xadimlərinin növbəti görüş üçün Bakıya gəlmələri məsələsi qaldırıldı və bu, İsveç tərəfindən məmnunluqla qəbul edildi".

# Beynəlxalq Tolerantlıq Gününə həsr edilən "Tolerantlıq: milli kimliklə vəhdət" mövzusunda "dəyirmi masa"-konfrans keçirilib

Noyabrın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Beynəlxalq Tolerantlıq Gününə həsr edilən "Tolerantlıq: milli kimliklə vəhdət" mövzusunda "dəyirmi masa"-konfrans keçirilib.

Tədbirdə DQİDK-nın sədri Mübariz Qurbanlı, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmərxanım Cavadlı, Azərbaycan Respublikası millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin əməkdaşı Ceyhun Məmmədov, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Analitika şöbəsinin müdiri Nəriman Qasımzadə, respublikada fəaliyyət göstərən dini konfessiya və dini icmaların rəhbərləri iştirak ediblər.



Konfransı giriş sözü ilə açan Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycanda tolerantlığın möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi və mədəni kökləri var. Azərbaycan müxtəlif dinlərin nümayəndələrinin dostluq və qardaşlıq şəraitində yaşadığı ölkədir. Azərbaycanda tarixən tolerant cəmiyyətin bərqərar olması burada məskunlaşmış azsaylı xalqlara və etnik qruplara öz varlığını qoruyub saxlamağa əlverişli mühit yaradıb. Azərbaycan tolerantlıq sahəsində dünyada ən qabaqcıl ölkələrdən sayılır.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmərxanım Cavadlı Azərbaycanda mövcud olan tolerantlıq ənənələrindən söhbət açaraq bu ənənələrin Vətənimizdə dərin köklərə malik olduğunu bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov çıxışında tolerantlığın ölkəmiz üçün yeni anlayış olmadığını söyləyib. O deyib ki, Azərbaycan xalqı əsrlərdən bəri bu xüsusiyyətini nümayiş etdirir. Azərbaycan müxtəlif millətlərin və dini konfessiyaların dinc, yanaşı yaşamasının nadir nümunəsidir.

Beynəlxalq Tolerantlıq Günü münasibətilə konfrans iştirakçılarını təbrik edən Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein Azərbaycanda dövlətin multikulturalizm siyasəti nəticəsində illərdir bütün konfessiyaların nümayəndələrinin sülh və qardaşlıq şəraitində yaşadıqlarını bildirib.

Daha sonra Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Katolik icmasının rəhbəri Vladimir Fekete, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Analitika şöbəsinin müdiri Nəriman Qasımzadə, Azərbaycan Respublikası millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin əməkdaşı Ceyhun Məmmədov tolerantlıq ənənələri ilə bağlı fikirlərini bildiriblər.

Konfrans ölkəmizdə hökm sürən tolerantlıq mühiti ilə bağlı dini konfessiya nümayəndələrinin və ekspertlərin hazırladıqları təqdimatlarla davam edib.

Tədbirin sonunda dövlət qeydiyyatından keçmiş 6 İslam və 3 qeyri-islam dini icmasına şəhadətnamələr təqdim olunub.

DQİDK-nın sədri Mübariz Qurbanlı bildirib ki, Beynəlxalq Tolerantlıq Günündə həm İslam, həm də qeyri-islam dini icmalara qeydiyyat şəhadətnamələrinin təqdim olunması təsadüfi deyildir. Bu, həm ölkəmizdəki tolerantlığın, həm də hansı dini konfessiyaya mənsubiyyətindən asılı olmayaraq, bütün dini icmalara bərabər münasibət göstərildiyinin bariz nümunəsidir.

# Mübariz Qurbanlı: "Din siyasi mübarizədə alətə çevrilə bilməz"

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dindən siyasi məqsədlər üçün istifadə etmək istəyən insanlara, qruplara xəbərdarlıqla bağlı müraciət edib.**

Mübariz Qurbanlı bildirib ki, kimlərinsə dindən siyasi məqsədlər üçün istifadə etməyə cəhd göstərmələrinə imkan verilməyəcək: "Bəzi qruplar dini siyasiləşdirməyə, din adı altında öz siyasi məqsədlərini ortaya qoymağa çalışırlar. Biz bir daha dindən siyasi məqsədlər üçün istifadə etmək istəyən insanları, qrupları xəbərdar edirik. Onlara bildiririk ki, bu, doğru yol deyil və bu cür hərəkətlər onlar üçün xoşagəlməz nəticələr verəcək. Azərbaycanda dövlət-din münasibətlərini tənzimləyən qanunlar var. Ona görə də bütün şəxslərimiz - istər dini ayinləri daimi icra edənlər, istər məscidə, istərsə də digər dini məbədlərə gedənlər - onların hamısı bu qanunlara əməl etməlidirlər. Kimlərsə dindən siyasi məqsədlər üçün istifadə etməyə cəhd göstərəcəksə, biz buna imkan verməyəcəyik. Cəmiyyət də buna imkan verməməli, media da bunun qarşısında dayanmalıdır".

Mübariz Qurbanlı deyib ki, əgər kimsə - istər fərd şəklində, istərsə də qrup şəklində siyasi məqsədlərini, siyasi iddialarını ortaya qoymaq istəyirsə, "Siyasi partiyalar haqqında" Qanuna müvafiq olaraq, siyasi partiya yaradaraq siyasi fəaliyyət göstərməlidir.

Komitə sədri qeyd edib ki, din siyasi mübarizədə bir alətə çevrilə bilməz.

Dinin mənəviyyatla, mədəniyyətlə, insanların tarixi və onların adət-ənənələri ilə bağlı olduğunu vurğulayan Mübariz Qurbanlı dinin siyasi məqsədlər üçün istifadəsinin yolverilməz olduğunu deyib: "Azərbaycanda dövlət dindən ayrıdır və din insanların daxili aləmidir, azad seçimidir. Dindən siyasi məqsədlər üçün istifadə cəhdlərinə qarşı kəskin müqavimət göstəririk və göstərəcəyik. Azərbaycanın qanunları, Konstitusiyası, dövlətimizin milli maraqları və ənənələri var. Ölkəmiz hansısa teokratik dini dövlətlərin modelinin buraya daşınmasına imkan verməz. Azərbaycan dünyəvi dövlətdir. Dünyəviliyimizi qorumaq üçün bu cür halların qarşısı qanunların sərtliyi ilə alınacaq. Azərbaycanda din pərdəsi altında öz siyasi iddialarını, məqsədlərini təbliğ etmək istəyənlərin cəhdlərinin qarşısı alınacaq".

# Dövlət Komitəsi daha 10 dini icmaya maliyyə yardımı ayırdı



Noyabrın 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) maliyyə yardımı ayrılmış daha 10 dini icma sədrinin iştirakı ilə toplantı keçirilib. Toplantıda Dövlət Komitəsi sədrinin müavinləri, şöbə müdirləri və dini icmaların rəhbərləri iştirak ediblər.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədi ilə dini icmalara maliyyə yardımı göstərmək üçün imzaladığı müvafiq Sərəncamın əhəmiyyətindən danışıb. Səyyad Salahlı bildirib ki, maliyyə vəsaitinin ayrılması ilə bağlı icmalar tərəfindən təqdim edilən layihələrin məqsədi yerlərdə dini maarifləndirmə işlərinin yüksək səviyyəyə çatdırılmasıdır.

Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov dini icmalara həyata keçirəcəkləri layihələrdə dini ənənələrimizi və milli-mənəvi dəyərlərimizi daha geniş şəkildə ictimaiyyətə çatdırmağı, maarifləndirmə işini yerlərdə təkmilləşdirməyi tövsiyə edib.

Qeyd edək ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama uyğun olaraq indiyədək 77 dini icmaya maliyyə yardımı verilib ki, bunların 19-u qeyri-islam, 58-i isə İslam dini icmalarıdır. Ayrılmış vəsait hesabına dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində icmalar tərəfindən yerlərdə tədbirlər keçirilməkdədir.

# Mübariz Qurbanlı: "Bütün dinlərin məişət zorakılığına münasibəti mənfidir"

"Məişət zorakılığı məsələsində xalqların adət-ənənələri mühüm rola malikdir. Bütün dinlərin məişət zorakılığına münasibəti mənfidir".

Bu sözləri Məişət zorakılığı sahəsində beynəlxalq konfransda çıxışı zamanı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

Komitə sədri bildirib ki, Bibliyada, İncildə, Tövratda və Quranda qadın zorakılığı qəbul edilmir: "Hətta "Əl-Bəqərə" surəsinin 256-cı ayəsində də zorakılıq pislənir. İslam dini qadınlara xüsusi önəm verir. Azərbaycanda məişət zorakılığının kökü yoxdur. Bizdə daim qadınlara, qızlara tolerant yanaşılıb. Hətta, Azərbaycan Xalq Cumhuriyyətinin dövründə də Şərqdə ilk dəfə qadınlara seçki hüququ verilib".

Komitə rəhbəri bildirib: "Biz bu sahədə Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə çalışırıq. Məişət zorakılığının aradan qaldırılması istiqamətində Heydər Əliyev Fondunun, Mehriban xanım Əliyevanın böyük rolu var".

# "Azərbaycandan hər hansı terror qruplaşmasına pul göndərilmir"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycandan İŞİD-ə pul göndərildiyinə dair Rusiyanın "İzvestiya" qəzetinin iddiasına münasibət bildirib.

Komitə sədri açıqlamasında yayılan xəbərləri təkzib edərək Azərbaycandan hər hansı terror qruplaşmasına pul göndərilmədiyini deyib.

"Rusiya mətbuatında yayılan xəbərlərin heç bir əsası yoxdur. Azərbaycandan İŞİD-ə pul göndərildiyinə dair ortada konkret fakt mövcud deyil".

Qeyd edək ki, Rusiyanın "İzvestiya" qəzeti İŞİD terror qruplaşmasına maliyyə dəstəyi verən ölkələrlə bağlı ilginc məlumat yayıb.Qəzetin iddiasına görə, dünyanın 40-a yaxın ölkəsindən terror qruplaşmasının hesabına pul köçürülür. Sözügedən məlumatda Azərbaycanın da adı qeyd edilir. Bildirilir ki, ölkəmizdən də İŞİD-ə maliyyə dəstəyi verilir. İddia edilib ki, MDB ölkələrindən ilk pillədə Qazaxıstan, ikinci pillədə Azərbaycan, üçüncü yer də isə Türkmənistan gəlir.

# Gündüz İsmayılov: "İslam milli kimliyə qarşı deyil"



"İslam milli kimliyə qarşı deyil, dinimiz millət anlayışı qəbul edir". Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov "İslamda milli kimlik" mövzusunda danışarkən deyib. APA TV-nin "Yaşıl orta" verilişinin qonağı olan ilahiyyatçı bildirib ki, dinimizin milli kimliyə münasibəti ilə bağlı "Quran-Kərim"də ayələr var: " İslam milli kimliyi tanıyır. Bunun arqumenti "Qurani-Kərim"in "Hucurat" surəsinin 13-cü ayəsidir. Ayədə belə buyurulur: " Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq". Bu dinimizin milli mövzuya münasibətinin göstəricisidir".

G.İsmayılov əlavə edib ki, İslam milli kimliyi qəbul etsə də, milli üstünlüyə qarşıdır: "Yəni dinimizə görə, hansısa bir xalqın Allah qatında üstünlüyü yoxdur. Rəbbimiz bütün insanları bərabər yaratdığı kimi bütün xalqları da bərabər yaradıb. Yenə də arqument bir az öncə səsləndirdiyim ayənin davamıdır: "Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır". İslama görə ali insan, ali xalq, ali irq söhbəti yoxdur. Dinimizin hədəfi millət anlayışı deyil, təqvadır, doğru-dürüst dinə dəvətdir".

İlahiyyatçının sözlərinə görə, insanlarımız çox vaxt dinlə mədəniyyəti qarışıq salırlar: "İslam bizim inancımız, mədəniyyət isə tariximiz, keçmişimiz, adət-ənənələrimizdir. Mədəniyyətə etiqad etmirik, hörmək göstəririk. Etiqadla hörmət fərqli predmetlərdir. Məsələn, Atəşpərəstlik əvvəl inancımız olub. Dünən inancımız olub, bu gün isə mənim mədəniyyətimdir. Mədəniyyətim kimi hörmət etməliyəm. Yaxud da götürək Suraxanıdakı Atəşgah məbədini. Bu gün Atəşgaha gedirəmsə, o demək deyil ki, oda sitayiş edirəm. Yox, mədəniyyətimin bir parçası olduğu üçün hörmət edirəm. Heç kim məni mədəniyyətimə hörmət göstərdiyimə görə qınamamalıdır. Yaxud da Novruz bayramını misal çəkə bilərik. Azərbaycanda heç kim bu bayrama inanc, etiqad kimi baxmır. Novruz mənim keçmişim, mədəniyyətimdir. Bizim milli və dini kimliyimiz bir vəhdətdir. Əslində, mənim azərbaycanlı kimliyimin içində həm də dini kimliyim var".

G.İsmayılov bildirib ki, İslam tarixən yayıldığı coğrafiyada insanların milli ənənələrinə hörmətlə yanaşıb: "İslam bu ərazilərdə xəlifə Həzrət Ömərin dövründə yayılıb. O zaman insanların İslama qarşı ciddi etirazları olmayıb. Düzdür, xilafətə, dövlət hakimiyyətinə qarşı çıxanlar olub. Amma bu siyasi xarakter daşıyıb, İslama yönəlməyib. Bunun da əsas səbəblərindən biri odur ki, İslam yerli ənənələrə hər zaman hörmətlə yanaşıb".

# Mübariz Qurbanlı: "Müxtəlif dini radikal qrupların istifadə

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası icra katibinin müavini Mübariz Qurbanlının APA-ya müsahibəsi*

**- Bu ilin sonu Azərbaycanda parlament seçkiləri ilə yadda qaldı. Seçkilər ərəfəsində ölkənin dini mühitində də bəzi hadisələr yaşandı. Buna münasibətiniz necədir?**

- Azərbaycanda parlament seçkiləri uğurla başa çatdı və bu seçkilərdə YAP qarşısına qoyduğu məqsədə nail oldu. Azərbaycanda parlament seçkilərinə çox ciddi hazırlıq görülmüşdü. Həm Mərkəzi Seçki Komissiyasının, həm də müvafiq dövlət strukturlarının gördüyü tədbirlər nəticəsində ölkəmizdə azad, ədalətli və şəffaf seçki mühiti yaradılmışdı. Noyabrın 1-də keçirilən seçkilər xalqımızın böyük ruh yüksəkliyi və seçki fəallığı ilə yadda qaldı. Seçki kampaniyasında bizim apardığımız təbliğat-təşviqat, namizədlərimizin fəaliyyəti partiya olaraq uğurlarımıza gətirib çıxardı. Bunun ən böyük səbəbi, əlbəttə, partiyamızın sədri, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdir ki, bunun da sayəsində ölkədə ictimai-siyasi sabitlik, maliyyə sabitliyi yaranıb və əhali də ölkə başçısının rəhbəri olduğu partiyanın fəaliyyətini yüksək qiymətləndirərək səslərini namizədlərimizə verdi.

Dini duruma gəldikdə isə, deyə bilərəm ki, vəziyyət sabitdir. Digər sahələrdə olduğu kimi, dini sahədə də dövlətin həyata keçirdiyi siyasət uğurla davam edir. Azərbaycanda dövlət-din münasibətlərini tənzimləyən kifayət qədər qanun var və bu qanunlara uyğun da dövlətin siyasəti, vətəndaşların hüququ təmin edilir. Azərbaycanda dini azadlıq, müxtəlif dini konfessiyaların birgəyaşayışı mövcuddur. Bu gün Azərbaycan əhalisinin 96 faizi İslam dininə ibadət edir, 4 faizi isə digər dinlərə mənsubdur. Bütün bunların fonunda biz həmrəylik, birlik, tolerantlıq və multikulturalizmin hamı tərəfindən qorunduğunu görürük.

Azərbaycanda din pərdəsi altında gizlənən qruplar da var. Onlar din adı altında öz məqsədlərinə çatmağa cəhd göstərir. Müxtəlif radikal-ekstremist dini qruplar mövcuddur. Lakin onların Azərbaycanda ictimai-sosial həyatda yeri və dayaqları yoxdur. Burada dini radikal qrupların apardığı təbliğat onların istədiyi nəticəni vermir. Ona görə vermir ki, Azərbaycan xalqı ənənəvi islami dəyərlərə və qaydalara əməl edir. Ölkəmizdə müxtəlif radikal dini qrupları təmsil edənlərin təbliğ və təşviqatı xalqın əksəriyyəti tərəfindən qəbul edilmir. Biz Komitə olaraq, bu sahədə geniş maarifləndirmə işləri aparırıq. Tədbirlər - konfranslar, seminar-treninqlər, dəyirmi masalar və s. görüşlər keçirir, kitablar nəşr edirik. Xüsusilə gənclərin maarifləndirilməsi sahəsində geniş iş aparırıq. Televiziyalar, mətbuat, o cümlədən, Dövlət Komitəsinin qəzeti, jurnalı və saytı vasitəsi ilə təbliğat işi aparılır. Bu işlər müəyyən nəticələr verir. Təbliğat işində biz Qafqaz Müsəlmanları İdarəsi ilə eyni istiqamətdə fəaliyyət göstəririk. Burada heç bir fikir ayrılığı yoxdur. Dini ekstremizm və radikalizmə qarşı mübarizədə dövlətlə dini qurumlar birgədir. QMİ ilə Dövlət Komitəsi bu sahədə sıx əməkdaşlıq edir.

**- Bu il Məhərrəm ayında bəzi aksiyalar olub. Xüsusilə, Gəncədə baş verənlər ictimaiyyətdə, sosial şəbəkələrdə geniş müzakirə obyektinə çevrilib. Buna münasibətiniz necədir?**

- Biz hələ Sovet dövründə Məhərrəm ayında Aşura günü insanların kütləvi şəkildə məscidlərə gəlməsini müşahidə etmişik. Elə Sovet dövründə də bu cür hadisələr baş verirdi. Məsələn, Sovet dövründə xatırlayıram ki, Təzə Pir məscidinin ətrafına böyük milis mühafizə dəstələri gətirilirdi. Buna baxmayaraq, insanlar məscidə gəlirdilər. O dövrdəki Aşura ilə əlaqədar keçirilən mərasimləri müqayisə etsək, indikilərdən daha çox xurafat elementlərini görə bilərik. Təziyədarlıqla bağlı indi olmayan hadisələr o vaxt olurdu. Sovet dövründə həm Gəncədəki İmamzadədə, həm Təzə Pirdə, həm də digər məscidlərdə baş yarmaq, zəncir vurmaq və s. bu kimi hallar müşahidə edilirdi. Baxmayaraq ki, o dövlət ateist təbliğatı aparırdı, yenə də bunların tam qarşısını ala bilməmişdi. Müstəqillik dövründə aparılan izahat işləri sayəsində indi zəncir vurmaq, baş yarmaq və s. hadisələr ölkəmizdə minimum səviyyədədir. Digər tərəfdən, Aşurada qanvermə aksiyaları Azərbaycanda özünə geniş yer tapıb və hər il bu aksiyanın keçirilməsi nəticəsində zəncirvurma, baş yarma halları tam aradan qalxmaq üzrədir. Məsələn, bu il bizim apardığımız monitorinq nəticəsində bu halların çox az olduğunu gördük. İldən-ilə belə məsələlər zəifləməkdədir. Mən hər il Aşura zamanı məsciddə qanvermə aksiyasına qatılıram, şəxsən özüm də qan verirəm. Müşahidə edirik ki, Sovet dövründən fərqli olaraq, həmin gün heç bir polis mühafizə nəfərləri tərəfindən yolların kəsilməsi halları yoxdur, hamı rahat gedib-gəlir.

Bu il isə Gəncə İcra Hakimiyyəti rəhbərliyi, hüquq-mühafizə orqanları insanlarla söhbət aparıb və onlara bildiriblər ki, Aşura ilə bağlı mərasim İmamzadədə keçiriləcək və bunun üçün nəqliyyat da ayrılıb. Lakin kimlərsə şəhərin mərkəzindəki Şah Abbas məscidində yığışaraq, oradan İmamzadəyə piyada yürüş etmək fikrini ortaya atıb. Gəncə şəhər İcra Hakimiyyəti də haqlı olaraq, onlara bildirib ki, bu, düzgün deyil, İmamzadəyə getmək istəyirlərsə, bunun üçün avtobuslar ayrılıb. Amma orada kimlərsə insanların dini inancından istifadə edərək hansısa bir məqsədə çatmaq üçün elə qarşıdurmaya yol verib. Bizdə hər şey qanun müstəvisində həll edilir. İstər dini mərasimlər, istər digər tədbirlər olsun, qanun çərçivəsində həll edilməlidir. "Dini etiqad azadlığı haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunlarımız var və bu qanunlar bir-biri ilə ziddiyyət təşkil etmir. Bu qanun tənzimləyir ki, insanlar kütləvi şəkildə küçə yürüşlərini, nümayişləri hansı şəkildə etməlidir. Ona görə də mərasim dini olsa da, burada mütləq müvafiq razılaşma olmalıdır. Yüzlərlə insanın bir yerdən başqa yerə hərəkəti əvvəlcədən nəzərdə tutulmalıdır. Şah Abbas məscidinin özündə də təziyə mərasimlərinin keçirilməsinə heç kim mane olmur, sadəcə bu, məsciddə olmalıdır. QMİ-nin fətvasında da birmənalı yazılır ki, bütün təziyə tədbirləri məscidin həyətində və içərisində keçirilməlidir. Küçələrdə bunu etməyə nə ehtiyac var? Digər tərəfdən, əgər bu təziyə mərasimi keçirilirsə, İmamzadədə baş tutması daha məntiqlidir. Bu məsələni mətbuatda bir az şişirdiblər, hay-küy qaldırıblar, amma əslində orada əksəriyyət şəhər icra hakimiyyətinin fikri ilə razılaşıb. Mən Gəncədə olmuşam, icra başçısı ilə də danışmışam. Gəncə şəhər İcra Hakimiyyəti başçısının özü dini etiqada sayğı ilə yanaşan adamdır. Onun haqqında sosial şəbəkələrdə müxtəlif böhtan xarakterli məlumatlar yayırlar, bu, doğru deyil. İcra Hakimiyyətinin başçısı şəhərdəki ictimai asayişə cavabdeh olan şəxsdir. Onun atdığı addımlarda da nə qanuna, nə ənənəmizə zidd hərəkət olub.

**- Sizcə, bunu orda kimlər təşkil etmək istəyirdilər?**

- Bununla bağlı biz araşdırma aparmışıq. Müəyyən qrup var ki, onlar din adı altında pərdələnərək öz məqsədlərini həyata keçirmək istəyir. Bunlarla bağlı müəyyən profilaktik tədbirlər görülüb və görüləcək. Onların heç bir sosial dayağı da yoxdur. Sadəcə, insanların dini inancından istifadəyə cəhd ediblər. Lənkəranda da küçələrə çıxmağa cəhd ediblər və şəhər İcra Hakimiyyəti mane olmayıb. Amma biz növbəti il üçün təkliflərlə çıxış edirik. Məscidlərdə hər hansı dini bayraqlardan istifadəni də məqbul saymırıq. Azərbaycan müstəqil dövlətdir, Azərbaycanın bayraq ilə bağlı qanunu var. Eyni zamanda, növbəti mərhələlərdə din xadimləri ilə birlikdə təkliflə çıxış edəcəyik ki, hər hansı dini mərasimləri küçələrdə keçirmək yol verilən hal deyil. Dini mərasimlər məsciddə və məscidin həyətində olmalıdır. Yəni hər hansı yürüşlər və s. iddiası ilə çıxış edənlər bununla bağlı müvafiq şəhər icra hakimiyyətindən icazə almalıdırlar. "Sərbəst toplaşmaq azadlığı haqqında" və "Dini etiqad azadlığı haqqında" qanunların tələblərinə əməl olunmalıdır.



**- Bildirdiyiniz kimi, maarifləndirmə işləri aparılmasına baxmayaraq, Azərbaycandan Suriyaya döyüşməyə gedənlərlə bağlı mütəmadi xəbərlər yayılır. Artıq ailəvi gedənlər barədə xəbərlər dolaşır. İŞİD-ə qarşı Suriyada əməliyyatlar aparan Rusiya rəsmiləri də keçmiş Sovet ölkələrindən döyüşməyə gedənlərin sayının çox olduğuna diqqət çəkirlər...**

- Bizdən Suriyada, İŞİD-in tərkibində vuruşmağa gedənlərin sayı son vaxtlar minimuma enib. Son 6-7 ay ərzində bir nəfər Azərbaycan vətəndaşının da Suriyaya döyüşlərə getməsi faktı qeydə alınmayıb.Suriyada radikal dini qrupların tərkibində döyüşənlərin xarici ekspertlər tərəfindən verilən siyahısında heç Azərbaycanın adı da yoxdur. Nəyə görə yoxdur? Çünki azərbaycanlıların sayı orada o qədər azdır ki, Azərbaycanın adını bu siyahıya salmayıblar. Bizim mətbuat isə bəzən milçəkdən fil düzəltməklə məşğul olur. Mən bəzi mətbuat orqanlarını deyirəm. Ciddi mətbuat orqanı faktı araşdırmadan onu səhifəsində yerləşdirməz. Bu günlərdə sosial şəbəkələrdə bir videomaterial gördüm. Əlində "Kalaşnikov" markalı avtomat olan bir nəfər döyüş səhnəsi olan ərazini gəzir, Azərbaycan dilində danışır, meyitləri göstərir və sair. Mən qəti əminəm ki, Azərbaycan dilində olan səs həmin səhnənin üzərinə yazılmadır. Danışan şəxsin ləhcəsi, bütövlükdə işlətdiyi terminlər onun dinə bağlı olmadığını göstərir. Yəni dini qruplaşmalara qoşulan insanların ləhcələri tamamilə dini terminlər üzərində qurulmuş olur. Bu şəxsin danışığı isə bizim məhəllə uşaqlarının danışığı səpkisində idi. O kadrdakı adamın da azərbaycanlı olub-olmaması bəlli deyil. Suriyaya Azərbaycandan gedənlər var. Amma peşmançılıq nəticəsində geri qayıdanlar olub. Onların içərisində həbs edilənlər də var, istintaq altında olanlar da. Biz bu məsələ ilə bağlı bir sənədli film üzərində işləyirik. Sənədli filmdir və bu məsələ ilə bağlıdır. O film ərsəyə gəlib təqdim olunandan sonra Azərbaycan ictimaiyyəti görəcək ki, Suriyaya gedib qayıdanlar kimlərdir və onlar orada nə qədər böyük dəhşətlər yaşayıblar. İndi Azərbaycanda hamıya bəllidir ki, Suriyada, İraqda gedən müharibə din müharibəsi deyil. Bu, müxtəlif böyük dövlətlərin çəkişmə mərkəzinə çevrilmiş ərazidir. Azərbaycana da bunun aidiyyəti yoxdur. İŞİD deyilən qrup isə hansısa dairənin maraqlarına görə yaradılıb. Ümumiyyətlə, İŞİD ilə dünyanı qorxutmağa ehtiyac yoxdur. Yaxın Şərqdə böyük güclərin maraqları uzlaşanda o qruplar öz-özünə yoxa çıxacaq.

**- Rusiyanın dini radikallara qarşı Suriyada keçirdiyi əməliyyatlara münasibətiniz necədir? Bu əməliyyatların bir hissəsi Xəzər dənizindən həyata keçirilib. Bu, radikal qrupların bizə qarşı da aqressiyasını artıra bilərmi?**

- İŞİD-in tərkibində bir çox ölkədən döyüşənlər var. Rusiya rəsmilərinin özlərinin də açıqladığı kimi, Rusiyadan daha çoxdur və bu sıralamaya görə Rusiya ilk beşliyə düşür. Rusiyanın da bu məsələyə müdaxiləsinin səbəblərindən biri budur. Amma bu səbəblərdən biridir. Əsas faktor isə ondan ibarətdir ki, Rusiya Suriyada hakimiyyətin dəyişməsini istəməyən ölkələr sırasındadır. Rusiyanın da Suriyaya müdaxiləsinin nəticəsi o olacaq ki, Bəşər

➩ 5

# etdiyi atributları qadağan edən norma yaratmalıyıq"

6 ⇦ Əsədin hakimiyyətdən silahlı yolla uzaqlaşdırılmasının qarşısı alınacaq.

İŞİD-in cavabına gəldikdə isə, bu qrupun əlində o imkan yoxdur ki, Rusiya kimi dövlətə nəsə etsin. Xəzərdən ora raketlər endirilibsə, İŞİD ordan bura necə və hansı resurs ilə cavab verə bilər? İŞİD-in sahib olduğu yüngül silahlardır. Sərhədləri adlayaraq, burada hansısa hərbi əməliyyatı keçirməsi isə mümkün deyil və real görünmür.

Xəzəryanı ölkə olaraq, Rusiya da Xəzərin neytral sularından istifadə edir. Eləcə də bizim neytral sulardan istifadə etmək imkanımız var. Burada problem yoxdur.

**- Bu ili müqayisə üçün götürsək, din adı altında təbliğat aparan qrupların ifşası ilə bağlı hansı işlər görülüb?**

- Radikal dini qrupların Azərbaycanda ifşası istiqamətində çox böyük işlər görülüb. Məhkəmələr gedir. Hazırda statistikanı demək mümkün deyil. Burada məsələ elədir ki, həm qrup şəklində, həm də fərd olaraq müəyyən hadisələr törədilib. Bunların hamısı hüquq-mühafizə orqanları tərəfindən araşdırılır. Hüquq-mühafizə orqanlarımız dinlə bağlı məsələlərə yalnız o zaman müdaxilə edir ki, o adamlar və ya qruplar qanunu kobud formada pozur. Ola bilər ki, kimsə yanlışlıqdan, kimsə bilməməzlikdən hansısa radikal qruplara qoşulur, hansısa radikal ədəbiyyatı yaymağa çalışır, yaxud radikal xarakterli hərəkətlərə yol verir. Biz ən çox inandırma metoduna üstünlük veririk. Biz hüquq-mühafizə orqanları ilə keçirdiyimiz müşavirələrdə söyləyirik ki, daha çox ideoloji metoda üstünlük verək. Yəni biz çalışmalıyıq ki, gənclərimiz, ümumiyyətlə, vətəndaşlarımız hansısa radikal qrupların təsirinə düşməsin, onlara üzv olmasın. Çünki o şəxsin cinayət məsuliyyətinə cəlb olunması bizim üçün əlverişli deyil. Biz çalışmalıyıq ki, insanlarımız bu məsələ ilə əlaqədar Cinayət Məcəlləsinin tələbinə uyğun olaraq qanun pozuntusuna yol verdiyinə görə həbs olunmasın. Çalışmalıyıq ki, bunun qarşısını alaq. Bunun üçün isə daha çox inandırma, təbliğat işinə böyük diqqət yetirməliyik. Bu da edilir.

**- Mütəmadi olaraq xüsusilə Bakı kəndlərində dini mərasimlərdə, toy məclislərində qonşu İran İslam Respublikasının dini liderlərinin, rəsmilərinin fotolarının, dini qruplaşmaların bayraqlarının nümayiş olunması ilə bağlı görüntülərin şahidi oluruq. Bu barədə nə deyə bilərsiniz?**

- Artıq son dövrlərdə bunu demək olar ki, müşahidə etmirik. Biz bayraq məsələsinə yenidən qayıtmalıyıq. Bayaq qeyd etdim ki, Azərbaycanda bayraq haqqında qanun var. Biz müxtəlif dini radikal qrupların istifadə etdiyi atributlardan istifadəni məhdudlaşdıran, qadağan edən norma yaratmalıyıq. Müxtəlif dini ekstremist qrupların istifadə etdikləri atributlar var. Bu, tək bayraq deyil. Loqolar, onları təbliğ edən vasitələrin görüntüsü və sair atributlar var. Bizdə "Dini etiqad azadlığı haqqında" Qanunda bu nüanslar var. Qanun bunları müəyyənləşdirir. Bunu müzakirə edəcəyik. Bununla bağlı bizim müəyyən fikirlərimiz var ki, gələcəkdə dini mərasimlərdə - bu məsələ bütün dinlərə aiddir - bayraqlardan və digər atributlardan istifadə məsələsinə toxunulacaq.

**- Dini ədəbiyyatlarla bağlı bu il hansı proseslər baş verib? Xüsusilə qadağan olunmuş dini ədəbiyyatların vəziyyəti nə yerdədir?**

- Qanunvericilikdə dini ədəbiyyatlar ilə əlaqədar maddələr var. Qanuna görə, ölkəyə dini ədəbiyyatlar və atributlar Dövlət Komitəsində ekspertiza rəyi aldıqdan sonra gətirilə bilər. Sərhəd və gömrük buraxılış məntəqələrimizdə müxtəlif xarakterli dini ədəbiyyat vasitələri gətiriləndə onların nümunələri bizə göndərilir. Bizim müvafiq şöbəmiz ona rəy verdikdən sonra həmin rəyə uyğun şəkildə ya onları buraxırlar, ya da onun gətirilməsinə imkan vermirlər. Eyni zamanda, ölkədə nə qədər dini kitab nəşr olunursa, Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsindən müsbət rəy aldıqdan sonra dərc oluna bilər.

*"Son 6-7 ayda bir Azərbaycan vətəndaşının belə Suriyaya döyüşlərə getməsi faktı qeydə alınmayıb"*

**- Bu il nə qədər qadağan olunmuş dini ədəbiyyat aşkarlanıb?**

- İndi konkret rəqəm deyə bilməyəcəyəm, çünki biz ilin yekununda bunun hamısını hesablayıb, dərc edəcəyik. Qadağan olunmuş dini ədəbiyyatın ölkəyə daxil olması halı ildən-ilə azalmaqdadır. Çünki ölkənin özündə bizim mətbəələr çoxlu sayda dini maarifləndirici ədəbiyyat və s. nəşr edir. Bütün kitablar, hətta Qurani-Kərim də nəşr ediləndə dini ekspertiza rəyini aldıqdan sonra dərc olunur. Azərbaycan prezidentinin ayırdığı vəsait hesabına biz Qurani-Kərimin Azərbaycan dilində tərcüməsini dini qurumlara paylayırıq. Bir çətinliyimizi qeyd edim. Bizim əhalinin 96 faizi müsəlman olsa da, əhalinin əksər hissəsi demək olar ki, İslam dinini kifayət qədər bilmir. Mütəxəssislər, yaxşı alimlər var, dini inancı olan insanlarımız var. Lakin bəzən dini inancı yaşayan insanlar belə, dinimizi o qədər yaxşı bilmir. Buna görə də bəziləri dini radikalizmin təsiri altına düşürlər. Məsələn, biri gəlir gənclərin toplaşdığı yerdə deyir ki, Qurani-Kərimin filan ayəsində belə deyilib. Amma insanlar ərəb dilini bilmədiyinə, Quranı Azərbaycan dilində oxumadığına görə, bilmir ki, o adam yalan danışır, yaxud düz. Ona görə də hər kəs Qurani-Kərimi yaxşı oxumalıdır. Falçıya gedib Quran "açdırmaq" və s. bunlar hamısı dində yasaqdır. Qurani-Kərim özü bir elmdir, məscidlərimiz elm yeridir.

**- Qəbiristanlıqlarla bağlı məsələ hələ də qalıb. Bununla bağlı hansısa sənəd hazırlanmalı idi. Nə yerdədir ?**

- Qəbiristanlıqlarla bağlı Nazirlər Kabineti qərar verməlidir. Həmin qərar layihəsi hazır edilib və Nazirlər Kabinetinə göndərilib. Bu qərar layihəsini bizim Komitə İqtisadiyyat və Sənaye Nazirliyi ilə birgə hazırlayıb. Rəylər də alınıb. Amma qərar layihəsi hələlik təsdiq olunmayıb. İnanıram ki, qəbul edilsə, bizim cəmiyyət üçün də onun böyük təsiri olacaq.

# "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfrans keçirilib

Noyabrın 24-də Qusar şəhərində "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda ikigünlük regional konfrans işə başlayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Qusar Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirdiyi konfransda şimal rayonlarında fəaliyyət göstərən dini icmaların rəhbərləri, din xadimləri, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak edirlər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək düzüb, xatirəsini ehtiramla yad ediblər.

Tədbirin açılışında çıxış edən Qusar Rayon İcra Hakimiyyəti başçısının müavini Şahid Fərəməzov konfransın əhəmiyyətindən bəhs edərək, ölkəmizdə milli-mənəvi dəyərlərimizin inkişafı üçün həyata keçirilən işlərdən danışıb. Bildirib ki, Azərbaycan xalqının əsrlər boyu qoruyub saxladığı tolerant mühit ən dəyərli sərvətlərimizdəndir.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransda çıxış edərək xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət-din münasibətlərindən, dahi rəhbərin milli-mənəvi dəyərlərin qorunması istiqamətində gördüyü misilsiz işlərdən danışıb. Bildirilib ki, Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc, yanaşı yaşamasının nadir nümunəsidir. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır. Dövlətin bu sahədə yürütdüyü siyasət nəticəsində Azərbaycan cəmiyyətində dinlərarası münasibətdə dözümlülük özünü ən yüksək səviyyədə göstərir.




Komitə sədri dünyada İslam dinini radikalizmə sürükləmək meyillərinin artmasından, bəzi qüvvələrin İslamı siyasiləşdirərək daxildə qarışıqlıq yaratmaqla onu gözdən salmağa çalışmasından, terrorla əlaqələndirmək istəklərindən də bəhs edərək, dini maarifləndirmə işinin vacibliyini vurğulayıb. Qeyd edib ki, gənclərimizi dini və mənəvi-əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorumaq məsuliyyəti bütün cəmiyyətin üzərinə düşür.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Fərəddin Rəhimxanov və başqaları çıxışlarında dövlət-din münasibətlərindən, gənclərin dini maarifləndirilməsindən, ölkəmizin tolerantlıq ənənələrindən, xalqımızın bütün dinlərə və konfessiyalara dözümlü münasibətindən bəhs ediblər.

Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılovun moderatorluğu ilə "Ənənəvi dini dəyərlərimiz və gənclik" mövzusunda davam edən plenar iclasda DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarovun "Milli-mənəvi dəyərlərimiz və ona qarşı təhdidlər", Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Rüstəm Ramazanovun "Ənənəvi İslamın təbliği – dini radikalizmlə mübarizə vasitəsi kimi" mövzularında məruzələri dinlənilib.

Komitə sədri Mübariz Qurbanlı Qusara səfəri çərçivəsində buradakı "Mustafa Kadzal" məscidində dindarlarla görüşüb, icma üzvlərinə kitablar hədiyyə edib.

Noyabrın 25-də konfrans işini Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun moderatorluğu ilə "Dini radikalizmlə mübarizədə dini icmaların rolu" mövzusunda plenar iclasda davam etdirib. İclasda Dövlət Komitəsinin sədr müavini, DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, rayon ictimaiyyətinin nümayəndələri, dindarlar və gənclər iştirak ediblər.

Gündüz İsmayılov bildirib ki, qeyri-ənənəvi dini təriqətlərin yayılması cəhdlərinin qarşısının alınması gənclər arasında milli-mənəvi, xüsusilə dini dəyərlərin təbliğinin düzgün aparılmasından asılıdır. Onun fikrincə, milli-mənəvi dəyərlərin təbliğində, eləcə də dini maarifləndirmə işinin aparılmasında dini icmalar,o cümlədən din xadimləri yaxından iştirak etməlidirlər. Əgər bu istiqamətdə təşəbbüslər olarsa, Dövlət Komitəsi həm maddi, həm də təşkilati cəhətdən həmin təşəbbüsləri dəstəkləməyə hazırdır.

Daha sonra Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarovun "Dini icmaların radikalizmlə mübarizədə fəaliyyətinin təşkili: imkanlar və prespektivlər" mövzusunda məruzəsi dinlənilib. Əliheydər Zülfüqarov radikalizmi yaradan səbəblərdən və bu kimi halların qarşısının alınması metodlarından danışıb. O, bildirib ki, Dövlət Komitəsi radikalizmlə mübarizə tədbirləri çərçivəsində dini maarifləndirmənin xüsusən gənclər arasında aparılmasının tərəfdarıdır.

Mövzu ilə bağlı çıxış edən DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev müasir gəncliyimizin milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasının vacibliyindən danışıb, bu sahədə xüsusən bölgələrdə gənclər arasında dini savadlılığın artırılması istiqamətində tədbirlər görüldüyünü bildirib.

# "Azərbaycanın inkişafına mane olmaq istəyən qüvvələr ölkədə dini siyasiləşdirməyə cəhdlər göstərirlər"

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun Trend-ə müsahibəsi*



**- Səyavuş müəllim, bu gün dünyada dinin siyasiləşdirilməsi və siyasi məqsədlər üçün bir alət kimi istifadə edilməsi tendensiyası müşahidə edilir. Bununla bağlı nə deyə bilərsiniz?**

- Doğrudur, bu gün müasir dünyada dinin siyasiləşdirilməsi prosesi məqsədyönlü, planlı şəkildə həyata keçirilməkdədir. Məlum güc mərkəzləri, siyasi dairələr tərəfindən geosiyasi, geoiqtisadi maraqların təmin edilməsi məqsədilə müxtəlif bəhanələrlə, o cümlədən insan hüquq və azadlıqlarının müdafiəsi adı altında bir çox ölkələrin daxili işlərinə müdaxilələr olunur. Bu da öz növbəsində böyük toqquşmalara, qanlı qarşıdurmalara və həmin ölkələrdə ictimai-siyasi sabitliyin köklü şəkildə pozulmasına gətirib çıxarır. Biz Yaxın Şərqə, o cümlədən Suriyaya nəzər saldıqda qeyd etdiyimiz proseslərin bariz nümunələri ilə qarşılaşırıq. Belə ki, inkişafa və tərəqqiyə, müasirliyə, yeni cəmiyyət yaratmağa doğru yönəlmiş Suriya kimi bir ölkəyə dəstək olmaq, yardımlar göstərmək əvəzinə, bu ölkənin inkişafının qarşısının alınmasına yönələn dağıdıcı fəaliyyətlərə rəvac verildi və hazırda dinin siyasiləşdirilməsinin acınacaqlı nəticələri hər kəsə məlumdur.

Vurğuladığımız güc mərkəzlərinin ölkənin daxili işinə müdaxilə edərək orada "milli müxalifət" yaratması, daha sonra İŞİD terror qruplaşmasının meydana çıxması və terrorçu "dövlət" səviyyəsinədək güclənməsi Suriyanın taleyini həll etdi. Maraqlı məqam ondan ibarətdir ki, bu gün artıq həmin qüvvələr Suriyadakı "milli müaxalifəti" xatırlamır, eləcə də İŞİD-ə qarşı mübarizədə "acizlik" nümayiş etdirirlər. Ortada isə xarabalığa çevrilmiş, insanların vəhşicəsinə öldürüldüyü, qaçqın və köçkün vəziyyətinə düşdüyü, bir neçə hissəyə parçalanmış ölkə qalıb.

**- Son dövrlərdə ölkəmizdə də dini siyasiləşdirməyə cəhd edən qüvvələrin aktivliyi müşahidə edilir. Sizcə, Azərbaycanda dinin siyasiləşdirilməsi cəhdlərinin əsas məqsədi nədir?**

- Bu gün, həmçinin, Azərbaycanın inkişafına mane olmaq istəyən daxili və xarici qüvvələr ölkədə dini siyasiləşdirməyə cəhdlər göstərirlər. Məlumdur ki, Azərbaycan uğurlu inkişaf yolu ilə gedən, regionda lider mövqeyə malik, dünyada enerji təhlükəsizliyinə böyük töhfə verən, dünyəvi güclü bir müsəlman dövlətidir. Müasir tariximizə nəzər salsaq görərik ki, ölkəmizə və onun müstəqil siyasətinə qarşı müxtəlif səpkili təzyiq vasitələrindən mütəmadi olaraq istifadə olunmuşdur. Günümüzdə isə bu daha çox özünü dinin siyasiləşdirilməsi müstəvisində göstərməkdədir.

Belə görünür ki, ölkəmizdə mövcud olan ictmai-siyasi sabitlik, əmin-amanlıq, dövlət-din münasibətlərinin sağlam şəkildə qurulması və iqtisadi inkişaf kimlərisə narahat edir. Məhz bu səbəbdən Yaxın Şərq "ssenarisi"ni ölkəmizə tətbiq etməyi xəyal edən qüvvələrin aktivliyi müşahidə edilir. Bununla sadəcə ictmai-siyasi sabitliyi pozmaq deyil, eyni zamanda Azərbaycanın zəiflədilməsi, ərazimizdən başqa, o cümlədən qonşu ölkələrə qarşı istifadə edilməsi, beynəlxalq layihələrdə, xüsusilə enerji layihələrində dövlətimizin diqtə edən tərəfdən diqtə olunan tərəfə çevrilməsi məqsədi güdülür. Lakin heç kim unutmamalıdır ki, Azərbaycan güclü dövlətdir və möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu inkişafımıza heç bir mənfur qüvvə mane ola bilməz.

**- Bir neçə gün bundan əvvəl bütün dünyada Beynəlxalq Tolerantlıq Günü qeyd edilsə də, dünyanın o qədər də tolerant mühitə malik olduğunu deyə bilmərik. Bununla bağlı fikirlərinizi bilmək istərdik.**

- Həqiqətən də, dünyada son vaxtlar baş verən hadisələr tolerantlıq və multikulturalizm kimi dəyərlərin böyük təhlükə altında olduğunu göstərir. Terrorizm, radikalizm və ekstremizm kimi təhlükəli tendensiyalar bir çox ölkələrin gündəlik həyatına sirayət etməkdədir. Fransada və digər ölkələrdə baş vermiş terror hadisələri heç kimin sığortalanmadığını göstərməklə yanaşı, yeni mənzərəni də ortaya çıxardı. Belə ki, son vaxtlarda Avropada İslamafobiya meyillərinin olduqca genişlənməsi və dinlərarası münasibətlərin gərgin müstəviyə keçidi müşahidə olunur. Onsuz da kifayət qədər iqtisadi-siyasi problemləri olan, mənəvi böhranla üz-üzə qalmış dünya üçün dinlərarası münasibətlərin gərginləşməsi müsbət heç nə vəd edə bilməz. Bu, gələcəkdə daha böyük və təhlükəli qarşıdurmalara gətirib çıxara bilər. Yaxşı olardı ki, dünya birliyi Azərbaycanın malik olduğu dinlərarası münasibətlər və multikulturalizm modelini özü üçün örnək götürsün. Bəlkə bunun nəticəsində dünyada sülh və əmin-amanlıq bərpa olunar.

**- Səyavuş müəllim, artıq neçə müddətdir ki, özünü "Müsəlman Birliyi Hərəkatı" adlandıran təşkilat və onun rəhbəri Tale Bağırzadənin fəaliyyəti ölkə ictimaiyyətini narahat edir. Buna münasibətinizi öyrənmək istərdik.**

- Daha əvvəl də qeyd etdiyimiz kimi, ölkəmizdə dini siyasiləşdirməyə cəhd edən qüvvələr var. Adını çəkdiyiniz qeyri-legitim qurum və onun rəhbəri də müəyyən qüvvələrin diqtəsi altında fəaliyyət göstərirlər. Bu təşkilat özünü siyasiləşmiş İslamın mərkəzi kimi nümayiş etdirərək bu istiqamətdə fəaliyyət göstərməyə cəhd edir. Lakin bu fəaliyyət kifayət qədər gülünc xarakterə malikdir. Belə ki, insanların dini duyğularının istismarı ilə məşğul olan bu təşkilat, açıqladıqları prinsiplərlə daban-dabana ziddiyyət təşkil edən siyasi partiyalarla əməkdaşlıq etməkdən də çəkinmirlər. Yəqin ki, onlar havadarları tərəfindən qarşılarına qoyulan tapşırıqları yerinə yetirməkdən ötrü bütün vasitələrə əl atmağı mümkün hesab edirlər. Mən həmin təşkilatın rəhbərliyinə bildirmək istərdim ki, müdrik Azərbaycan xalqı xarici qüvvələrin əlində oyuncağa çevrilmiş, əl öpməkdə böyük "məharətə" sahib insanlara heç vaxt etibar etməyəcəkdir.

**- Yeri gəlmişkən, dini sahədə bəzi boşluqları dini təhsillə əlaqələndirənlər də var. Ölkəmizdə dini təhsilin vəziyyəti ilə bağlı nə deyə bilərsiniz?**

- Bildiyiniz kimi, ölkəmizdə ali dini təhsil verən müvafiq təhsil müəssisələri mövcuddur. Bununla yanaşı, xaricə də dini təhsil almaq üçün gedən gənclər var. Təəssüf ki, xaricdə dini təhsil alan bəzi şəxslər təhsil aldıqları yerlərin ideologiyasına bürünərək geri qayıdırlar. Onlar həmin ölkələrin milli-mənəvi dəyərlərini Azərbaycana idxal etməyə cəhd göstərir, burada həmin əqidənin təbliğatçısına çevrilirlər. Tale Bağırzadə kimi şəxslər də həmin bu tendensiyanın "məhsuludur". Təbii ki, bu o demək deyil ki, dini təhsil sahəsində problemlər yoxdur. Dünyada yaranmış mövcud vəziyyətə uyğun olaraq dini təhsil sahəsində də təkmilləşməyə ehtiyac vardır. O cümlədən, dini təhsilin ödənişsiz əsaslarla həyata keçirilməsi də ümumi işin xeyrinə ola bilər. Bununla əlaqədar müvafiq tədbirlərin görülməsi planlaşdırılır.

## "The Jerusalem Post": Tolerantlığın Azərbaycanın böyük sərvətidir

**İsrailin "The Jerusalem Post" qəzetində Los-Ancelesdə fəaliyyət göstərən "StandWithUs" təşkilatının şöbə müdiri Yael Lerman Mazarın Azərbaycanla bağlı məqaləsi dərc edilib.**

Məqalədə müəllif Los-Ancelesdə yerləşən Sinay Məbədinin ravvini David Volpenin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində bu yaxınlarda Azərbaycana etdiyi səfərlə bağlı təəssüratlarını bölüşür. O yazır: "Biz Azərbaycana gedəndə bu ölkə və xalq haqqında demək olar ki, heç nə bilmirdik. Bir həftə sonra isə biz gözəl insanları olan bu ölkəni sevgi hissi ilə tərk etdik. Biz müsəlmanların və yəhudilərin bir yerdə necə mehriban şəraitdə yaşamalarının mümkün olduğunu gördük".

Məqalədə Los-Ancelesdən Azərbaycana gedən nümayəndə heyətinin bu ölkədə dağ yəhudilərinin yaşadıqları ərizələrdə olmasından da bəhs edilir.

Yəhudi icmasının hər zaman Azərbaycanda özünü təhlükəsiz hiss etdiyini və burada sülh içində yaşadığını qeyd edən müəllif insanların ölkədə mövcud olan plüralizmdən və etnik fərqlilikdən qürur duyduqlarını bildirir. O qeyd edir ki, Azərbaycanın zəngin mədəniyyəti var: "Biz küçələrdə qonaqpərvər, istiqanlı insanlarla rastlaşdıq. Qonaqpərvərlik Azərbaycan xalqının əsas xüsusiyyətlərindən biridir".

Məqalədə Azərbaycan ilə İsrail arasındakı əlaqələrdən də bəhs edilir. Bu əlaqələrin getdikcə daha geniş sahələri əhatə etdiyi vurğulanır. Hər iki ölkənin qədim tarixə malik olduğu qeyd edilir.

Yael Lerman Mazar vurğulayır ki, Azərbaycan yəhudilərə qarşı belə xoş münasibət göstərən nadir ölkələrdən biridir. Bu möhtəşəm diyarın tarixini, mədəniyyətini öyrənmək hər kəsdə maraq oyadar.

## Sabunçu rayonunda baş verən hadisə ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun açıqlaması

Noyabr ayının 5-də rəsmi qeydiyyatdan keçməmiş, Müsəlman Birliyi Hərəkatı adlanan qurumun idarə heyətinin sədr müavini kimi təqdim olunan Elçin Qasımov Sabunçu rayon polis idarəsinin əməkdaşları tərəfindən xuliqanlıq hərəkətlərinə yol verdiyi üçün saxlanılaraq polis idarəsinə aparılmışdır.

Elçin Qasımovun saxlanılmasına etiraz bildirən bir qrup şəxs polis idarəsinin qarşısına gələrək ictimai asayişi pozmağa cəhd göstərmişdir. Nəticədə polis əməkdaşlarına müqavimət göstərən şəxslər də xuliqanlıq hərəkətlərinə yol verdiyi üçün saxlanılmışlar. Onu da qeyd edim ki, Elçin Qasımov və digər şəxslər rəsmi din xadimləri və dini icma üzvləri deyillər və bu barədə onlar tərəfindən Qafqaz Müsəlmanları İdarəsinə və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə heç bir müraciət olmamışdır. Həmin şəxslərin dini ibadət yerlərində dini ayinlərin icrasına rəhbərliyi həyata keçirmələrinə rəsmi icazələri yoxdur. Lakin dəfələrlə onlar tərəfindən dini ayinlərin icrası adı altında ictimai asayişi pozmağa cəhdlər göstərilmişdir.

Nəticədə dindən istifadə etməklə siyasi xarakterli hərəkətlər-çağırışlar etmişlər. Dəfələrlə onlara müvafiq dövlət orqanları tərəfindən xəbərdarlıq edilməsinə baxmayaraq, qanunazidd hərəkətlərini davam etdirmişlər. Hazırki şəraitdə isə bu tipli adamlar özlərinin xuliqanlıq hərəkətlərini dini amillə pərdələməyə çalışırlar. Ölkəmizdə ənənəvi islami dəyərlər qorunur və hər kəsin dini ayinləri icrasına heç bir maneçilik yoxdur.

# "Molla, axund və imamların fəaliyyətinin lisenziyalaşdırılması gündəmdə deyil"

Azərbaycanda molla, axund və imamların fəaliyyətinin lisenziyalaşdırılması gündəmdə deyil. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ANS PRESS-ə açıqlamasında bildirib ki, Azərbaycanda molla, axund və imamlar üçün mütəmadi olaraq kurslar təşkil olunur, mühazirələr oxunur, onların fəaliyyətinə nəzarət edilir, buna görə də onların fəaliyyəti üçün əlavə lisenziyaya ehtiyac yoxdur. "Molla, axund və imamlar Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təyin edilir. İdarənin ümumi qaydalarına uyğun olaraq yalnız dini təhsili, dini ayinləri icra etmək qabiliyyəti olan və Qafqaz Müsəlmanları İdarəsinin təşkil etdiyi imtahandan keçən molla, axund və imamlar fəaliyyət göstərə bilər". Komitə sədri bildirib ki, bu cür qaydalar "Dini etiqad azadlığı haqqında" Qanunda və digər qanunlarda nəzərdə tutulmur.

# "Məzar yerləri və məzarlıqlar haqqında" qərar layihəsinə Nazirlər Kabineti tərəfindən baxılır"

**"Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin İqtisadiyyat və Sənaye Nazirliyi ilə birgə hazırladığı "Məzar yerləri və məzarlıqlar haqqında" qərar layihəsinə dəfn mərasimlərini həyata keçirmək üçün insanlara maliyyə vəsaitinin verilməsi də daxil edilib".**

Bunu Trend-ə Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

O qeyd edib ki, layihədə gələcəkdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə insanlara dəfn mərasimlərini həyata keçirmək üçün vəsaitin verilməsi məsələsi də öz əksini tapıb: "Burada söhbət yardım göstərməkdən gedir. Bu vəsait ehsan vermək üçün deyil, dəfni icra etmək üçün nəzərdə tutulur".

Komitə sədri əlavə edib ki, layihədə məzarlıqlarla bağlı bir çox məsələlər – məzar yerlərinin ayrılması, onların ölçüləri, büstü və onun ölçüsü, qəbirlərarası məsafələr, qəbiristanlıqla yaşayış məntəqələri arasında məsafələr, dəfn mərasimləri, qəbiristanlıqda dəfn mərasimlərinin icrası və s. öz əksini tapıb.

Mübariz Qurbanlı deyib ki, məzarların saxlanılması və s. üçün nəzərdə tutulan rüsumun məbləği çox cüzi olacaq: "Rüsumun məbləği qərar layihəsində göstərilməyib. Ancaq söhbət çox böyük rüsumlardan getmir. Əgər şəhid ailəsi, şəhid olan vətəndaş, kimsəsiz insan olacaqsa, ona görə heç bir rüsum olmayacaq. Bu cür hallar layihədə nəzərə alınıb".

Qərar layihəsinə pullu qəbiristanlıqların yaradılması məsələsinin daxil edilməməsinin səbəbini iki əsas amillə izah edən Mübariz Qurbanlı deyib ki, İslamda "pullu qəbiristanlıq" anlayışı yoxdur. Bu məsələ Azərbaycanın qanunlarında da öz əksini tapmayıb: "Hesab edirəm ki, məzarlıqlar pullu ola bilməz. Məzarlıqlar vətəndaşlara pulsuz verilir və bundan sonra da belə olmalıdır".

Mübariz Qurbanlı hazırda qərar layihəsinə Nazirlər Kabineti tərəfindən baxıldığını da deyib.

# Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qusarda vətəndaşları qəbul edib

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı noyabrın 24-də Qusardakı Heydər Əliyev Mərkəzində bu rayondan, eləcə də Quba və Xaçmazdan olan sakinləri qəbul edib. Əvvəlcə Mərkəzin qarşısında Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyulub, xatirəsi ehtiramla yad olunub.

Qəbulda vətəndaşlar əsasən dini icmaların dövlət qeydiyyatına alınması, onların fəaliyyəti, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin təmiri və digər məsələlərlə bağlı müraciət ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı vətəndaşların müraciətlərini diqqətlə dinləyərək bəzilərinin həlli, bəzilərinin isə araşdırılması üçün göstərişlər verib. İyirmi nəfərədək vətəndaşı qəbul edən Komitə sədri bir sıra müraciətləri yerindəcə həll edib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə baxılması və müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara çatdırılmaq məqsədilə qeydiyyata alınıb.



# "Brayl əlifbası" ilə nəşr edilmiş Qurani-Kərim təqdim olunub

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinin əməkdaşları Respublika Gözdən Əlillər Cəmiyyətinin Abşeron rayon şöbəsinin müdiri Timur Balayevlə görüşüblər. Şöbənin əməkdaşları Timur Balayevə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə "Brayl əlifbası" ilə nəşr olunmuş Qurani-Kərim təqdim ediblər. Respublika Gözdən Əlillər Cəmiyyətinin Abşeron rayon şöbəsinin müdiri Timur Balayev göstərilən diqqətə görə təşəkkürünü bildirib.

Qeyd edək ki, bu ilin iyul ayında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) maliyyə dəstəyi ilə Azərbaycanda ilk dəfə brayl əlifbası (ciddi görmə problemli insanların oxuyub-yazması üçün tərtib edilən əlifba) ilə Qurani-Kərim çap edilib.

# "Azərbaycanda tolerantlıq və multikulturalizm dövlət siyasətinin ayrılmaz hissəsidir"



Noyabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Masallı bölgəsi üzrə şöbəsi və Masallı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 16 noyabr – Beynəlxalq Tolerantlıq Gününə həsr edilmiş "Azərbaycanda tolerantlıq və multikulturalizm dövlət siyasətinin ayrılmaz hissəsidir" mövzusunda seminar-treninq keçirilib.

Tədbirdə Dövlət Komitəsinin Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryəhya Bədirov, Masallı Rayon İcra Hakimiyyətinin məsul işçisi Qəşəm Hadıyev, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Mirqiyas Təhməzov, Masallı Rayon Gənclər və İdman İdarəsinin rəisi Camal Manafov, rayonun dini icma sədrləri, təhsil işçiləri və gənclər iştirak ediblər.

Tolerantlıq ənənələrinin Azərbaycan xalqının mənəviyyat və sülhsevərliyindən qaynaqlandığını, tolerantlığın dövlət siyasətinin əsas tərkib hissəsi olduğunu bildirən M.Bədirov ölkəmizdə tolerantlıq ənənələrinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və həmin ənənələrin bu gün Prezident cənab İlham Əliyev tərəfindən çox uğurla inkişaf etdirildiyini vurğulayıb.

Daha sonra Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Mirqiyas Təhməzov, Masallı Rayon İcra Hakimiyyətinin məsul işçisi Qəşəm Hadıyev, Masallı Rayon Gənclər və İdman İdarəsinin rəisi Camal Manafov və başqaları çıxış edərək Azərbaycan xalqının tolerantlıq ənənələrindən danışaraq, dövlətimizin bu ənənələrə verdiyi önəmi qeyd ediblər.

Sonda kitab sərgisi nümayiş etdirilib və dini maarifləndirmə məqsədi ilə tədbir iştirakçılarına Dövlət Komitəsi tərəfindən ədəbiyyat paylanıb.



# Dini radikalizmlə mübarizədə dini icmaların rolu



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Sumqayıtda "Dini radikalizmlə mübarizədə dini icmaların rolu" mövzusunda seminar-müşavirə keçirib. Tədbirdə Sumqayıt şəhərində, Abşeron və Xızı rayonlarında fəaliyyət göstərən dini icmaların sədrləri iştirak ediblər.**

Komitənin sədr müavini Səyavuş Heydərov ölkədəki dini durum, dini icmaların fəaliyyəti, dövlətin dinə qayğısı və tolerantlıq siyasəti barədə danışaraq qeyd edib ki, dövlət-din münasibətləri qanunvericiliklə tənzimlənir. Azərbaycanda dini radikalizmə qarşı mübarizə qanun çərçivəsində aparılır və bu sahədə ən effektiv vasitə maarifləndirmə işidir.

Ölkədə dini radikalizm meyillərinin qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərdən danışan S.Heydərov bildirib ki, Azərbaycan ənənəvi İslam ölkəsi olmaqla, eyni zamanda dünyəvi dövlətdir, dini və milli mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar qanun qarşısında bərabərdir. O, radikal dini qrupların və qeyri-ənənəvi təriqətlərin zərərli təbliğatının qarşısının alınması, onlara qarşı effektiv mübarizə aparılması, dini maarifçilik işinin düzgün metodlarla təşkili məsələlərinə də toxunub. Vurğulanıb ki, dini radikalizmlə mübarizənin gücləndirilməsi, milli-mənəvi dəyərlərin, tolerantlıq mühitinin qorunub saxlanılması, eləcə də dövlət-din münasibətlərini tənzimləyən milli qanunvericilik bazasının geniş və əhatəli şərhi məqsədilə dini maarifləndirmə işinin aparılması zəruridir. Bəzi radikal qrupların gəncləri öz təsir dairəsinə salmağa çalışmasından danışan S.Heydərov bunun qarşısının alınması üçün görülən işlərin intensiv davam etdiriləcəyini diqqətə çatdırıb.

DQİDK-nın sədr müavini Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra respublikamızda dinə münasibətin tamamilə dəyişdiyini, milli-mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşıldığını xatırladıb, bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini deyib.

Sonra DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədovun "Dini radikalizm: mahiyyəti, səbəbləri və təzahür formaları", Sumqayıt cümə məscidinin axundu Rauf Sərdarovun "İslamda əsl cihad anlayışı və sui-istifadə halları" haqqında məruzələri və digər çıxışlar dinlənilib.

Regionda fəaliyyət göstərən dini icmaların sədrləri əhalinin dini baxışlarının sağlam müstəvidə formalaşdırılması, gənclərin radikal cərəyanların təsirindən qorunması və din xadimlərinin məlumatlandırılması üçün bu cür maarifləndirici tədbirlərə ehtiyac olduğunu vurğulayıblar.

# Azərbaycan bütün dünya üçün gözəl tolerantlıq nümunəsidir



Noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev din xadimlərinin və dini icma başçılarının "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə mükafatlandırılması haqqında Sərəncam imzalayıb. Beynəlxalq Tolerantlıq Günü münasibətilə Azərbaycan Dağ Yəhudiləri dini icmasının sədri Milix İlhananoviç Yevdayev Azərbaycanda multikulturalizm və konfessiyalararası münasibətlər ənənələrinin inkişafında xidmətlərinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

Azərbaycan Prezidenti İlham Əliyevin bu Sərəncamını yüksək qiymətləndirən Milix Yevdayev bildirib ki, Azərbaycanın din xadimlərinin və dini icma başçılarının mükafatlandırılması Azərbaycan hökumətinin milli azlıqlara və dini icmalara diqqət və qayğısının nəticəsidir. Azərbaycan hökuməti bütün dini konfessiyalar üçün bərabər şərait yaradıb.

Milix Yevdayev qeyd edib ki, yəhudilərin Azərbaycanda məskunlaşmasının 2000 ildən çox tarixi var. Ölkədə həmişə yəhudilərə doğma münasibət olub və həmin münasibət bu gün də davam edir. Digər konfessiyaların nümayəndələri kimi yəhudi icmasının nümayəndələri də öz dini ayinlərini və adət-ənənələrini azad şəkildə həyata keçirirlər. Azərbaycanda antisemitizm əlamətləri heç vaxt müşahidə olunmayıb. Azərbaycan hökumətinin təşəbbüsü və maliyyə dəstəyi ilə Bakıda müasir tələblərə cavab verən yeni sinaqoq binası inşa edilərək dağ yəhudilərinin ixtiyarına verilib. Yəhudi icmasının Azərbaycan parlamentindəki nümayəndəsi Yevda Abramov artıq üçüncü müddətə xalq deputatı seçilib.

M.Yevdayev bildirib ki, Azərbaycan bütün dünya üçün gözəl tolerantlıq nümunəsidir. Azərbaycan öz müsbət nümunəsi ilə müsəlmanların, yəhudilərin və xristianların sülh və qarşılıqlı hörmət şəraitində dinc yanaşı yaşamaq imkanlarını sübuta yetirir. ABŞ-ın Los-Anceles şəhərində çıxan ən böyük yəhudi nəşrlərindən biri olan "Jewish Journal" qəzetinin bir sıra nömrələrində bütün dünya ölkələrinə multikulturalizm və tolerantlıq nümunəsi ola biləcək Azərbaycan modeli barədə məqalələr dərc olunub. Həmin məqalələrdə Azərbaycanda və Los-Ancelesdə yaşayan yəhudilər arasında yaranan mehriban münasibətdən, Azərbaycanda tarixi tolerantlıq ənənələrindən, o cümlədən yəhudi icmasına göstərilən diqqət və qayğıdan söz açılır. Los-Ancelesdəki Sinay Sinaqoqunun baş ravvini Devid Volpinin başçılığı ilə bu yaxınlarda Bakıya səfər edən 50 nəfərdən ibarət nümayəndə heyətinin üzvləri vurğulayıblar ki, ölkəmizdə müxtəlif dinlərə, o cümlədən yəhudi icmasına göstərilən diqqət və qayğı bütün dünya üçün nümunəvi modeldir".

Azərbaycanın İsveçdəki səfirliyinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) və İsveç Təhlükəsizlik Siyasəti və İnkişaf İnstitutunun (ISDP) təşkilatı dəstəyi ilə noyabrın 18-də Stokholmda "Multikulturalizm və dinlərarası tolerantlıq: Azərbaycanın təcrübəsi və onun Avropa üçün əhəmiyyəti" mövzusunda konfrans keçirilib.

Azərbaycan nümayəndə heyəti Stokholma səfər çərçivəsində İsveç Rikstaqında (parlament) Sosial Demokrat, İsveç Demokratları, "Yaşıllar" və Xristian Demokrat partiyalarının bir qrup deputatı, İsveçin mədəniyyət və demokratiya naziri Alisa bax Kunke, habelə bu ölkədəki Azərbaycan diasporunun aparıcı nümayəndələri ilə görüşlər keçirib.

# Bölgələrdə "Uşaq hüquqları aylığı" çərçivəsində tədbirlər keçirilib

Noyabrın 3-11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Bakı şəhəri üzrə şöbəsi, Bakı şəhəri Qaradağ rayonu 274 saylı orta məktəb və Qaradağ rayonu Müşfiqabad qəsəbə məscidi dini icmasının birgə təşkilatçılığı ilə Qaradağ rayonu, Müşfiqabad qəsəbəsi, 274 saylı orta məktəbdə, Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbəsi və Salyan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Salyan rayon Ə.Kürçaylı adına 7 saylı tam orta məktəb liseyində, Gəncə bölgəsinin təşkilatçılığı ilə Samux şəhəri 3 saylı orta məktəbdə, Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə şəhər 5 saylı orta məktəbdə, Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş şəhər "Üç qovaq" məscidində və Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay şəhər "Əbülfəzlil Abbas" məscidində, Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yardımlı şəhər 1 saylı orta məktəbdə və Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağcabədi şəhər "Cümə" məscidində "Uşaq hüquqları aylığı" çərçivəsində "Milli-mənəvi dəyərlərimizin uşaqlara aşılanması", "Uşaq hüquqlarının müdafiəsi və təbliğində dini icmaların rolu", "İslamda uşaq hüquqları", "Uşaq hüquqlarının müdafiəsi və milli-mənəvi dəyərlərimiz" və "Uşaq hüquqlarının müdafiəsi və təbliğində İslam dininin rolu" mövzularında tədbirlər təşkil olunub.

Dövlət Komitəsinin müvafiq bölgə şöbə müdirlərinin, müvafiq rayon və şəhər icra hakimiyyətlərinin nümayəndələri, məktəb direktorları, müəllimlər, ziyalılar, axundlar, dini icma nümayəndələrinin iştirak etdiyi tədbirlərdə milli-mənəvi dəyərlərimiz haqqında geniş məlumat verilib, hazırkı dövrdə uşaq hüquqlarının pozulmasına səbəb olan halların aradan qaldırılması barədə fikirlər bölüşülüb. Uşaqların Azərbaycanın sabahı olduğunu diqqətə çatdıran natiqlər tədbir iştirakçılarını onların problemlərinə biganə qalmamağa çağıraraq uşaqların şəxsiyyət kimi formalaşmasında ailənin böyük rolunu və ailəyə hörmətin Azərbaycan xalqına məxsus ən gözəl xüsusiyyətlərdən olduğunu vurğulayıblar. Tədbirlərdə "Uşaq hüquqları haqqında" Qanunun müvafiq müddəalarının tətbiqi barədə geniş məlumat verilib. Bildirilib ki, Uşaq Hüquqları Konvensiyasına uyğun olaraq uşaq və yeniyetmələrə hüquq normalarının öyrədilməsi mühüm məsələdir. Çünki öz hüquqlarını yaxşı bilən, lazım gəldikdə ondan istifadə etməyi bacaran uşaq doğma Vətənini daha yaxşı sevir, vicdanlı olur, milli-mənəvi dəyərlərini, həm də öz mənliyini qoruya bilir.

Sonda iştirakçıların sualları cavablandırılıb.



# Riyakar demokratiya siyasəti

***Qədim hind aforizmlərindən birində deyilir ki, ağıllı adam həqiqəti axtarır, müdrik adam isə həqiqəti göstərir. Eyni mahiyyətdə, amma bir qədər fərqli məzmunda yunanların da bir kəlamı var: ağıllı adam nəticəni, müdrik adam həm nəticəni, həm də onun səbəbini görə bilir.***

***Akademik Ramiz Mehdiyevin "Avropa strukturlarının deqradasiyasının mənbələri haqqında və ya Azərbaycana münasibətdə ikili standartlar siyasəti" adlı əsərində ("Azərbaycan" qəzeti, 29 oktyabr, 2015-ci il) Qərbin Azərbaycana münasibətində mövcud vəziyyətlə yanaşı, bu vəziyyəti yaradan mənbələr və səbəblər də aydın şəkildə göstərilib. Bu araşdırma təkcə Azərbaycanla bağlı həqiqətlərə deyil, eyni zamanda beynəlxalq aləmdə, xüsusilə Avropada, Yaxın Şərqdə cərəyan edən hadisələrə, onları doğuran səbəblərə işıq tutur və bu proseslərin düzgün dərkinə xidmət edir. Bu mənada qeyd olunan siyasi təhlil region, xüsusilə müsəlman və ikili standartlardan əziyyət çəkən ölkələr üçün də faydalı ola bilər.***

Avropa strukturları, ümumiyyətlə, Qərb tərəfindən Azərbaycana qarşı təzyiq kimi hansı vasitə və metodlardan istifadə olunması, hansı məsələlərdə ikili standartlardan çıxış edilməsi, xüsusilə Dağlıq Qarabağ probleminə riyakar yanaşılması yeni məsələ deyil. Lakin nəinki adi insanlar, hətta siyasi analitiklər də indiyədək baş vermiş hadisələrin və ümumi prosesin timsalında köhnə Avropanın iç üzünün, saxta mahiyyətinin bu şəkildə və detallarına qədər, üstəlik tutarlı, təkzibolunmaz faktlarla açılmasının ilk dəfədir şahidi olurlar. Bu nöqteyi-nəzərdən qeyd olunan araşdırmanın nəticələrinə istinadən politoloqların və siyasi analitiklərin yeni araşdırmalar ortaya qoyacaqları şübhəsizdir. Hətta əminliklə demək olar ki, akademik Ramiz Mehdiyevin araşdırmaları bu sahədə yeni meyar və standartların müəyyən olunmasını şərtləndirib.

Sözügedən araşdırmadan çıxarılan çoxsaylı nəticələrdən biri, bəlkə də birincisi budur ki, Avropanın, bütövlükdə Qərbin bizə qarşı təzyiqlərinin əsas səbəbi Azərbaycanın müstəqil siyasət yürütməsidir. Bu rəy Prezident İlham Əliyevin fikirlərində əyani təsdiqini tapır: "Azərbaycanda düşünülmüş müstəqil siyasət aparılır. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf yoludur, tərəqqi yoludur və bu yolda böyük nailiyyətlərə imza atmışıq. Müstəqil siyasət aparmağımız bizə bəzi problemlər də yaradır. Çünki bu gün qütbləşmə göz qabağındadır, bu proses gedir. Böyük dövlətlər öz təsir dairələrini genişləndirmək istəyirlər və görəndə ki, dünyada müstəqil, öz sözünü deyən, heç kimdən çəkinməyən, prinsipial ölkə var, əlbəttə, bu, onları qıcıqlandırır".

Araşdırmanın digər önəmli nəticəsi isə Azərbaycanın artan təzyiqlər və ikili standartlar müqabilində gələcəyə yönəlik seçimi və hədəfləri ilə bağlıdır. Qısaca məsələni belə bir sualla da ifadə etmək olar: Azərbaycan nə etməlidir? Bu sualın cavabı da Prezident İlham Əliyevdən verilmiş sitatda açıq şəkildə göstərilir: "Müstəqillik, müstəqil siyasət, milli maraqlar bizim üçün əsas vəzifədir, əsas məsələdir. Biz bundan sonra da Azərbaycanın seçimini qoyacağıq, bütün təzyiqlər, bəzi hallarda təxribatlara baxmayaraq, öz yolumuzdan dönməyəcəyik".

Qərbin demokratiyanın əsas dəyəri və meyarı kimi müəyyən olunmuş insan hüquqlarına ikili standartlarla yanaşması, bir çox hallarda təzyiq aləti kimi istifadə etməsi təcavüzə məruz qalmış və ərazisinin iyirmi faizi işğal olunmuş Azərbaycana çoxdan məlumdur. O da məlumdur ki, Qərb, o cümlədən Avropa strukturları təcavüzkar Ermənistanı qınamaq və ədalətin bərpasına kömək etmək əvəzinə, gizli və aşkar formada işğalçını himayə etməkdən çəkinmir, bir çox hallarda onun şıltaqlıqlarına dözür və nazı ilə oynayır. Araşdırmadan çıxarılan çoxsaylı məntiqi nəticələrdən biri də budur ki, Avropa strukturlarının Azərbaycana münasibətdə insan hüquqlarından təzyiq aləti kimi istifadə edilməsi prinsipindən tezliklə əl çəkmək niyyəti yoxdur. Hətta ola bilər ki, Qərbin Azərbaycana münasibətdə ikili standartlar siyasətinə yeni "çalarlar" əlavə olunsun. Əslində, ölkəmizdə vicdan azadlığının təmin olunmasına münasibətdə yeni "çalarlar" xeyli vaxtdır hiss edilir və görünür. Bunu konkret nümunələrlə də göstərmək mümkündür.

Məsələn, qürurla deyə bilərik ki, bu gün sivilizasiyalar və dinlərarası dialoqun baş tutması üçün əsas şərtlərdən birinə çevrilən və mütərəqqi dünya tərəfindən başlıca demokratik dəyərlərdən biri kimi təbliğ olunan tolerantlıq Azərbaycan xalqının əsrlər boyu formalaşan və bir çoxları üçün örnək olan xarakterik xüsusiyyətidir.

Azərbaycan tarixən dinlərin və mədəniyyətlərin qovşağı olub, zamanla dini və etnik müxtəliflik ölkəmizin ən böyük zənginliyinə çevrilib. Əslində, Azərbaycan ərazisi bütün dövrlərdə dini və etnik ayrı-seçkilikdən əziyyət çəkən insanlar üçün sığınacaq rolunu oynayıb, üstəlik, bura təkcə fərqli dinlərin - Yəhudiliyin, Xristianlığın mənsubları deyil, həm də müxtəlif səbəblərdən təzyiqlərlə üzləşən İslamla bağlı məzhəblərin nümayəndələri pənah gətiriblər. Müxtəlif tarixi dövrlərdə Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini nəinki yad hesab etməyib, hətta yerli əhali ilə qaynayıb-qarışıb, qohumluq əlaqələri qurublar.

Azərbaycan dinlərin və mədəniyyətlərin qovuşduğu tarixi məkan kimi bu gün də eyni funksiyanı uğurla yerinə yetirir. Azərbaycan təkcə sosial-iqtisadi uğurlarına, hərbi-siyasi potensialına görə deyil, eyni zamanda, vicdan azadlığının təmin edilməsinə, yüzilliklər ərzində formalaşmış tolerantlıq ənənələrinin, multikultural dəyərlərin, eləcə də tarixi-dini abidələrin bərpasına və qorunmasına görə regionun lider dövlətidir.

Azərbaycanda tolerantlığın və multikulturalizmin yüksək səviyyədə olması həm də xarici siyasətçilərin və diplomatların etiraf etdikləri həqiqətdir. Hətta Azərbaycanın dövlət-din münasibətləri modelinin ixrac edilməsinin zəruriliyini söyləyən xarici diplomatlar, yüksək səviyyəli din xadimləri, mütəxəssislər də var. ATƏT-in İnsan Hüquqları və Demokratik Təsisatlar Bürosunun keçmiş rəhbəri Jerar Ştudman etiraf etmişdir ki, "Azərbaycanda dini dözümlülük heç də yeni konsepsiya deyildir. Bu ölkə yüz illər boyunca müxtəlif mədəniyyətlərin yanaşı yaşamasına, dözümlülüyə bariz nümunə ola bilər. Biz onu ümumi mədəni irsimizə münasibətdə nümunə göstərə bilərik".

ABŞ-ın Azərbaycandakı keçmiş səfiri xanım Ənn Dersi isə bu həqiqəti fərqli və daha lakonik formada ifadə etmişdi. O, demişdi ki, "Azərbaycan Qərbə təkcə neft-qaz deyil, həm də tolerantlıq ixrac edə bilər". Keçmiş səfirin bu fikrini Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında böyük rolu olan Azərbaycanın köhnə qitənin mədəni, multikultural mühitinin zənginləşdirilməsində real potensialının obyektiv qiymətləndirilməsi kimi də başa düşmək olar. Lakin iş ondadır ki, Azərbaycanda vicdan azadlığının yüksək səviyyədə təmin olunması, dinlərarası dialoqun və tolerantlığın bərqərar edilməsi barədə verilmiş bəyanatların, qəbul edilmiş qətnamələrin mürəkkəbi qurumamış Qərb dairələrində, Avropa strukturlarında təzadlı və qərəzli fikirlər səslənməyə başlayıb. Belə ki, son iki ildə Azərbaycanda vicdan azadlığının vəziyyətinə dair hazırlanmış hesabatlarda qərəzlə dolu kifayət qədər məqamlar var.

Vicdan azadlığı ilə bağlı əvvəlki illərin hesabatlarında bir qayda olaraq tənqidi məqamlara yer verilir, əsassız da olsa, bir-iki fakta toxunulur və ümumi mənzərə natamam normal təsir bağışlayırdı. Lakin son dövrlərin hesabatları əvvəlkindən kifayət qədər fərqlənir, qərəzli məqamlar üstünlük təşkil edir, tənqid üslubu sərtləşdirilir, ümumi vəziyyət yalnız qara rəngdə təqdim olunur, ən əsası, Azərbaycan vicdan azadlığının səviyyəsinə görə "alt və aşağı" qrupa daxil olan ölkələrlə bir tutulur. Məsələn, ABŞ Dövlət Departamentinin Demokratiya, İnsan Hüquqları və Əmək Məsələləri Bürosunun, eləcə də bu ölkənin Beynəlxalq Din Azadlığı Komissiyasının Azərbaycanda vicdan azadlığına dair hesabatlarının son illərdəki təhlilləri qeyd olunanların əyani təsdiqidir.

Ümumiyyətlə, son vaxtlar Azərbaycanla bağlı Qərbdəki bəzi dairələr tərəfindən hazırlanmış sənədlərdə o qədər qərəzə və ifrata yol verilir ki, bu, nəinki onların obyektivliyinə, hətta ciddiliyinə də böyük şübhə yaradır. Bəlkə də, bu, başa düşüləndir. Çünki həmin dairələrin Azərbaycana qarşı qərəzi bir sıra hallarda o həddə çatır ki, sağlam məntiqi mühakimə belə yürüdə bilmirlər. Üstəlik, nəyin bahasına olursa-olsun Azərbaycanı qaralamaq arzusu bəzən onları hazırladıqları hesabatlara görə gülünc vəziyyətə salır. Məsələn, ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyasının hesabatında guya Azərbaycanda müsəlman çoxluğun (?!) hüquqlarının "pozulmasına" dair iddialar yer alıb. Eyni zamanda, Leyla və Arif Yunusların həbsi "vicdan azadlığı" (?!) ilə əlaqələndirilib. Yəqin, çoxları razılaşar ki, bu cür yersiz və əsassız iddialar təkcə təəssüf hissi yox, həm də gülüş doğurur. Ümumiyyətlə, Qərbin bəzi dairələrinin Azərbaycana münasibətinə yalnız bir ad vermək olar: qərəz və riyakarlıq.

Həmin dairələrin Azərbaycana münasibətdə riyakarlığının başqa bir nümunəsi dini radikalizm və ekstremizmə münasibətlə bağlıdır. Belə ki, ABŞ və Avropa strukturları terrorizm, dini radikalizm və ekstremizmlə mübarizə apardığını bəyan edir, bu istiqamətdə Azərbaycan hökumətinin səylərini dəstəklədiyini bildirir. Amma iş ondadır ki, ölkəmizdə bəzi radikal qruplar, onların fəalları, toplaşdıqları məscidlər barədə tədbirlər görüldükdə bir sıra Qərb dairələri buna vicdan azadlığı donu geyindirməyə çalışırlar. Halbuki, həmin dini qruplardan və onların toplaşdığı ibadət evlərindən qanunsuz silahlı birləşmələrdə döyüşmək üçün Suriyaya gedənlərin olduğunu hər kəs bilir. Bütün bunlardan sonra akademik Ramiz Mehdiyevin bu fikrinə haqq qazandırmamaq qeyri-mümkündür: "Əslində, İŞİD-i Qərb dövlətlərinin özü yaradıb, mötədil Suriya müxalifətini ağılsızcasına silahlandırıb".

Əlbəttə, Qərbdəki bəzi dairələrin dini radikal qrupları vicdan azadlığı pərdəsi altında himayə və müdafiə etmək istəyinin arxasında başqa mətləblərin olması da istisna deyil. Məsələn, dini qrupları, o cümlədən radikalları gələcəkdə Azərbaycanda "beşinci kolon"a dayaq və köməkçi qüvvə kimi formalaşdırmaq niyyəti.

Qəribə və təzadlı olan həm də budur ki, Qərbin Azərbaycanda və bir sıra məlum ölkələrdə "İslamçı qüvvələr"in vəkili kimi çıxış etməsi Amerika və Avropada artmaqda olan islamafobiya və multikulturalizm böhranı ilə paralel baş verir. Bu halda haqlı bir sual yaranır: müsəlman ölkələrində "İslamçı qüvvələr"in müdafiəsi rolunu oynayan Qərb strukturları niyə Avropada və Amerikada islamafobiyanın artmasına seyriçi gözü ilə baxırlar? Cavab sadədir: Qərbdəki bir sıra dairələrin İslam sevgisi saxtadır və onlar müsəlmanlara münasibətdə riyakar davranırlar. Belə olmasaydı, Avropada islamafobiya güclənməz, multikulturalizm böhranı yaşanmazdı. Bu baxımdan akademik Ramiz Mehdiyev haqlı olaraq qeyd edir ki, "Hazırda Avropa İttifaqı məkanında islamafobiyanın və ksenofobiyanın artması, radikal millətçi əhval-ruhiyyənin güclənməsi davam edir. Avropa modeli özünün əvvəlki cəlbediciliyini itirməyə başlayır. Avropa İttifaqında sonuncu parlament seçkilərinin nəticələri buna sübutdur". Eyni zamanda, bütün bunlardan sonra akademikin bu fikri tamamilə yerinə düşür: "Avropa Azərbaycandan yüzilliklər boyu formalaşmış tolerantlıq, dini dözümlülük və multikulturalizm təcrübəsini əxz etsəydi, pis olmazdı".

Zaman keçir, qloballaşma sürətlənir, lakin dünyada və beynəlxalq münasibətlərdəki ikili standartlar dəyişmir. Əksinə, dünyada ədalətsizlik, müstəqil siyasət aparan dövlətlərə qarşı təzyiqlər daha da artır. Bu mənada gələcəkdə müxtəlif vasitələrlə Azərbaycana təzyiqlərin güclənəcəyi istisna deyil. Ancaq dəyişməyən bir həqiqət var: Azərbaycan xalqının birliyi və Prezidenti ilə həmrəyliyi. Bu birlik 1 noyabrda Milli Məclisə keçirilmiş seçkilərdə bir daha öz təsdiqini tapdı, Azərbaycan xalqı Prezident İlham Əliyev siyasətinə - sabitliyə və inkişafa səs verdi. Əslində, Azərbaycan xalqı noyabrın 1-də təkcə seçimini etmədi, eyni zamanda xarici dairələrin ölkəmizdə "beşinci kolon"la bağlı arzu və ümidlərinin üstündən xətt çəkdi.

***Gündüz İSMAYILOV***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini***

## BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR

# ZAQATALA

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Zaqatala bölgəsi üzrə şöbəsi 2015-ci ilin may ayında Şimal-qərb bölgəsi üzrə şöbənin əsasında təşkil olunmuşdur. Şöbənin dislokasiyasına Qax, Zaqatala və Balakən rayonları daxildir. Azərbaycan tolerantlığının canlı nümunəsi olan bu ərazi həm etnik, həm də dini cəhətdən ölkəmizin ən rəngarəng bölgələrindəndir. Burada azərbaycanlılarla yanaşı, saxur, avar, ləzgi, gürcü, rus, ingiloy, kürd və s. kimi xalqların nümayəndələri mehriban və yaxın qonşuluq şəraitində yaşayırlar. Əhalisinin əksər hissəsi müsəlmanlardan ibarət olan bölgədə Xristianlığa etiqad edən dindarlar da mövcuddur.***



Təqribən 272 min nəfərin yaşadığı bölgədə 138 məscid, 6 kilsə, 37 ziyarətgah var. Burada fəaliyyət göstərən 61 dini icmanın 54-ü Dövlət Komitəsində yenidən, 7-si isə əvvəllər qeydiyyatdan keçmişdir. Hazırda dini icmaların yenidən qeydiyyata alınması prosesi davam edir.

Bölgədə dini təhsil ocaqlarından Bakı İslam Universitetinin Zaqatala şöbəsi və Əliabad İslam mədrəsəsi fəaliyyət göstərir.

Fəaliyyət istiqamətini Azərbaycan Respublikası Konstitusiyasını, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununu, Dövlət Komitəsinin rəhbərliyinin göstəriş və tövsiyələrini rəhbər tutaraq, bölgədə dini sabitliyin qorunub saxlanılması, dövlət-din münasibətlərinin düzgün şəkildə tənzimlənməsi üzərində quran şöbənin əməkdaşları tez-tez həm müsəlman, həm də qeyri-müsəlman dini icmalarının nümayəndələri ilə görüşür, onların fəaliyyətlərinin Azərbaycan dövlətçiliyinə və xalqımızın mənafeyi istiqamətində qurulmasına çalışır. Şöbə təkcə dindarların deyil, bölgə əhalisinin də dini bilgilərinin artırılması işini də prioritet məsələ qəbul edərək bu yöndə müxtəlif tədbirlər, görüşlər keçirir.

İlin birinci yarısında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullanın Zaqatala və Qax rayonlarına səfəri, səfər əsnasında hər iki rayonun ictimaiyyət nümayəndələri, ziyalıları və dindarları ilə keçirdikləri görüşlər, eyni zamanda ilin ikinci yarısında Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin Qax rayonuna səfəri, onun Qax şəhər mərkəzi "Cümə" məscidini və "Müqəddəs Giorgi" kilsəsini ziyarət etməsi bölgə dindarları tərəfindən rəğbətlə qarşılanmış, dövlətin dinə böyük qayğısının təzahürü kimi qiymətləndirilmişdir.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayevin təşəbbüsü və DQİDK-nın sədri Mübariz Qurbanlı və Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadənin dəstəyi ilə Zaqatala rayonu Əliabad qəsəbə məscidinin təmir olunması yerli dindarların sevincinə səbəb olmuş, həmin məscidin təmiri üçün "Mir Mövsüm Ağa" ziyarətgahı tərəfindən göstərilən maddi yardım Azərbaycanda tarixən mövcud olan məzhəblərarası dostluq və qardaşlığın daha da möhkəmlənməsi istiqamətində növbəti addım olmuşdur. Əliabad qəsəbə məscidi ilə yanaşı, bu il Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və yerli İcra Hakimiyyətlərinin maddi və texniki dəstəyi ilə Balakən rayonu Qabaqçöl qəsəbə məscidində və Qax şəhər mərkəzi "Cümə" məsidində əsaslı təmir işləri aparılmışdır.




Bölgədə dini maarifləndirmə işinin əsas məqsədi bölgə dindarlarının, gənclərin və ictimaiyyətin digər nümayəndələrinin qeyri-ənənəvi cərəyanlar, dini radikalizm, tolerantlıq, ənənəvi İslam, dinlərarası və məzhəblərarası dostluq, dövlət-din münasibətləri və s. kimi mövzularla daha yaxından tanış etmək, bu cür məsələlərdə lazımi biliklərə yiyələnmələrinə imkan yaratmaqdır. Bu baxımdan qeyd etmək lazımdır ki, Dövlət Komitəsinin Zaqatala şəhər Mədəniyyət evində və Qax rayon İcra Hakimiyyətində təşkil etdiyi "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusundakı regional konfransları əhali tərəfindən xüsusi maraqla qarşılanmış, bu konfranslarda hər iki rayonun gəncləri, ziyalıları və ictimaiyyət nümayəndələrinə ilahiyyatçılar tərəfindən müxtəlif mövzularda məruzələr oxunmuş, qarşılıqlı diskussiyalar aparılmışdır.

Zaqatala bölgəsi üzrə şöbənin dini maarifləndirmə sahəsində gördüyü işlərdən biri də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən hazırlanan kitabların və kitabçaların dini icmalara, dindarlara, müəssisə və təşkilatlara, hüquq-mühafizə orqanlarına, ziyalılara və cəmiyyətin digər müxtəlif sahələrində fəaliyyət göstərən insanlara paylanmasıdır. Dövlət Komitəsinin birbaşa maddi dəstəyi ilə çap olunan bu kitablar dini ədəbiyyat sahəsində mövcud olan qıtlığı əhəmiyyətli dərəcədə ortadan qaldırmışdır.

Hüquq-mühafizə orqanları ilə qarşılıqlı əməkdaşlığa böyük əhəmiyyət verən Dövlət Komitəsi Daxili İşlər Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında "Dini radikalizmlə mübarizənin effektivliyinin artırılması məqsədilə Daxili Qoşunların şəxsi heyətinin maarifləndirilməsi istiqamətində birgə işin təşkilinə dair" Tədbirlər Planı çərçivəsində Zaqatala rayonunda seminar-treninq keçirmiş, DQİDK sədrinin I müavini Səyyad Salahlı Balakən, Zaqatala və Qax rayonlarında xidmət edən polis əməkdaşlarına mövzu ilə bağlı ətraflı məlumatlar vermişdir. Zaqatala rayonunda Daxili Qoşunların N saylı hərbi hissəsində "Dini radikalizm və İslam dünyası" mövzusunda təşkil olunan tədbir və DQİDK sədrinin müavini Gündüz İsmayılovun bu tədbirdəki çıxışı Vətənimizin keşiyində duran əsgərlərimizin bu sahədəki biliklərinin artırılmasına öz töhfəsini vermişdir.



Hüquq-mühafizə orqanları ilə Azərbaycanda mövcud olan ənənəvi dini mühitə zərbə vurmaq istəyən, dini radikalizm və məzhəb ayrı-seçkiliyi salmağa çalışan qüvvələrə qarşı birgə bir sıra qabaqlayıcı profilaktik tədbirlər həyata keçirən şöbəmiz, eyni zamanda bölgədəki rayonların polis şöbələri ilə birgə orta məktəblərdə şagird və müəllim kollektivləri ilə dini radikalizm, dini istismar və narkomaniya əleyhinə seminarlar təşkil keçirmişdir. Bu il iyun ayının 3-də Balakən rayonunda Azərbaycan Respublikası Baş Prokurorluğunun təşəbbüsü ilə Balakən Rayon İcra Hakimiyyətinin məsul əməkdaşlarının, Balakən, Zaqatala, Qax, Şəki və Oğuz rayonlarının hüquq-mühafizə orqanlarının rəhbər şəxslərinin, DQİDK-nın Zaqatala və Şəki bölgə şöbə müdirlərinin, bölgə qazılarının, eyni zamanda Balakən rayon ərazi dairə nümayəndələri, bələdiyyə sədrləri və din xadimlərinin iştirakı ilə "Dini ekstremizm və radikalizm" mövzusunda əməliyyat müşavirəsi də bu qəbildəndir. Görüşdə ötən bir il ərzində dini ekstremizm və radikalizmlə mübarizədə görülən işlər müzakirə edilmiş, bu sahədəki nöqsanlar və

## BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR

# ZAQATALA

birgə görüləcək işlərdən danışılmışdır.

Bu il bölgəmizdə Ramazan, Qurban, Pasxa və Kürmük oba bayramları yüksək səviyyədə qeyd olunmuş, Dövlət Komitəsinin maddi dəstəyi Zaqatala, Qax və Balakən rayonlarında iftar süfrələri təşkil olunmuş, hər üç tədbirdə DQİDK sədrinin müavini Gündüz İsmayılov iştirak etmiş və bölgə dindarları ilə görüşərək onları maraqlandıran məsələlər barədə söhbətlər aparmışdır. Qax rayonu Qaxingiloy kənd "Müqəddəs Giorgi" dini icmasının Qurban bayramında qurbanlar kəsərək imkansız müsəlman və xristian ailələrinə paylaması isə bölgəmizdə dinlərarası münasibətlərin hansı səviyyədə olmasının əyani sübutudur.

Şöbə dövlət-din münasibətlərinin tənzimlənməsi, icmalararası münasibətlərin yüksək səviyyədə davam etdirilməsi, mövcud tolerantlığın qorunub daha da inkişaf etdirilməsi, yad təsirlərin qarşısının alınması və s. məsələlərdə bölgəyə daxil olan rayonların icra hakimiyyət-





ləri yanındakı dini komissiyalar, digər aidiyyəti dövlət qurumları, hüquq-mühafizə orqanları, qeyri-hökumət təşkilatları və bölgə qazılıqları ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində də müxtəlif maarifləndirici tədbirlər həyata keçirmişdir və hazırda bu yöndə işlər davam etdirilir. Dini komissiyalarla qarşılıqlı əməkdaşlıq quran şöbəmiz Zaqatala, Balakən və Qax rayon icra hakimiyyətləri yanında fəaliyyət göstərən dini işlər üzrə komissiyalarla mütəmadi şəkildə birgə təhlillər aparır, bu təhlillər əsasında yaranmış problemlərin həlli istiqamətində müvafiq addımlar atılır.

Qafqaz Müsəlmanları İdarəsinin yerli şöbələri ilə əməkdaşlığa xüsusi yer ayıran Dövlət Komitəsinin Zaqatala bölgəsi üzrə şöbəsi il ərzində Zaqatala-Balakən bölgə qazılığı ilə birgə burada fəaliyyət göstərən bir çox məsciddə cümə günləri dindarlarla dini-maarifləndirici görüşlər keçirilmiş, ilahiyyatçı mütəxəssislərin də dəvətə olunduğu bu görüşlərdə dini radikalizm, mövhumatçılıq, dini istismar, qeyri-ənənəvi cərəyanlar və təriqətlərlə mübarizə barədə geniş izahatlar verilmiş, Azərbaycanda tarixən mövcud olan ənənəvi İslam dini haqqında söhbətlər aparılmışdır. Bundan başqa, Zaqatala-Balakən və Qax rayon bölgə qazılıqları ilə birgə vaxtaşırı dini icma sədrləri və din xadimləri ilə görüşlər təşkil olunur, yerlərdəki problemlər və onların həlli yolları müzakirə edilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Təhsil Nazirliyinin "Təhsil müəssisələrində uşaq və gənclərin milli-mənəvi və bəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" birgə Fəaliyyət Planına əsasən, DQİDK Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala rayon Təhsil şöbəsi bu ilin oktyabrından rayon ümumtəhsil məktəblərində milli-mənəvi dəyərlərin təbliği və məktəblilərin bu ruhda tərbiyəsi ilə bağlı silsilə tədbirlər təşkil etməyə başlamışdır. Yuxarı sinif şagirdləri ilə keçirilən bu görüşlərin onların milli-mənəvi dəyərlərimizlə daha yaxından tanış olmalarına və bu dəyərlərin təsiri ilə tərbiyə almalarına yardım edəcəkdir. Bu cür tədbirlərin bölgəmizə daxil olan digər rayonlarda da keçirilməsi planlaşdırılır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yerli şöbəsi ilə də əməkdaşlıq yüksək səviyyədə qurulmuşdur. 2015-ci il fevralın 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında imzalanmış "2015-2016-cı illər üçün birgə işin təşkilinə dair" Tədbirlər Planına uyğun olaraq hər iki dövlət qurumunun bölgə şöbələri erkən nikah, zərərli vərdişlər və məişət zorakılığı və s. mövzularda tədbirlər keçirir. Əsasən qadınlar, gənclər və uşaqların iştirak etdiyi bu kimi tədbirlərdə mövzu ilə bağlı problemlərin həlli istiqamətində tövsiyələr verilir, bu kimi problemlərlə qarşılaşmamaq üçün diqqət edilməli olan məsələlər ətrafında geniş söhbətlər aparılır.

Qeyri-hökumət təşkilatları ilə əməkdaşlığa da xüsusi önəm verən Zaqatala bölgəsi üzrə şöbə cari ildə "Yeni Fikir" Jurnalist Həmrəyliyi İctimai Birliyinin, Azərbaycanın Bütövlüyü Uğrunda Cəmiyyətin və Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin Zaqatala, Balakən və Qax rayonlarında "Yeniyetmə və gənclərin radikal dini meyillərdən və zərərli vərdişlərdən çəkindirilməsi", "İslam dinində parçalanma yaratmağa çalışan dini təriqətlərə qarşı mübarizə tədbirlərinin təşkili" və "Tolerantlığın təbliğində vətənpərvər gənclərin rolu" mövzularında keçirdiyi konfransları dəstəkləmişdir. Bu seminar və konfranslarda şöbənin əməkdaşları da müxtəlif mövzularda çıxışlar edərək iştirakçıları maraqlandıran sualları cavablandırmışlar.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dini icmalara ayırdığı vəsait hesabına, Zaqatala rayon Göyəm, Sumaylı kənd və Əliabad qəsəbə məscidləri, Qax şəhər "Cümə" məscidi və Balakən rayon Qabaqçöl qəsəbə məscidi dini icmaları tərəfindən yerlərdə silsilə dini-maarifləndirici tədbirlər keçirilmiş, ekspertlərin dəvət olunduğu bu tədbirlərdə yüzlərlə iştirakçı dinimiz haqqında tam və dolğun məlumatlar əldə etmişdir. Dövlət Komitəsinə müvafiq layihələr təqdim edən bölgəmizdəki dini icmalara həmin vəsaitin verilməsi prosesi davam etdirilir.

Dövlət Komitəsinin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr etdiyi "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda keçirilən müsabiqədə bölgəmizi təmsil edən Zaqatala rayonu Çobankol kənd məscidi dini icmasının sədri Məhəmməd Nurullayev həmin müsabiqənin qalibi olmuşdur.

Bütün bu görülən işlər bölgə əhalisinin dini radikalizm, qeyri-ənənəvi dini cərəyanlar, mövhumatçılıq, dövlət-din münasibətləri, ənənəvi İslam, tolerantlıq, dinlərarası və məzhəblərarası dostluq və s. kimi aktual mövzularda daha dəqiq məlumatlar əldə etməsinə şərait yaratsa da, Azərbaycan tolerantlığının ən bariz nümunələrindən sayılan bölgəmizdə bu ənənəni qorumaq, milli kimliyimizə söykənən sağlam dini mühiti daha da inkişaf etdirmək üçün görüləcək işlər və atılacaq addımlar çoxdur. Şöbəmiz bundan sonra bu istiqamətdəki fəaliyyətini daha da artıracaq, dövlətçiliyimizin qorunması istiqamətində əlindən gələni əsirgəməyəcək, var gücü ilə çalışacaqdır.

***Mehman İsmayılov,***
*Zaqatala bölgəsi üzrə şöbənin müdiri*

## "Qara bayraqlı qaranlıq" sənədli filminin təqdimatı keçiriləcək



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Lent.az İnformasiya Agentliyinin birgə layihəsi çərçivəsində "İŞİD həqiqətləri: reallıq və miflər" kitabının, habelə "Qara bayraqlı qaranlıq" sənədli filminin təqdimatı keçiriləcək. Bu barədə layihənin koordinatoru, kitabın və filmin müəllifi Səbuhi Məmmədli məlumat verib.

Kitab və film Dövlət Komitəsinin dəstəyi ilə Suriya sərhədindən hazırlanmış və Lent.az-da yayımlanan "3 gün xilafətlə üz-üzə" silsilə yazıların əsasında ərsəyə gəlib. Həmin yazıların qəhrəmanları Suriyanın müxtəlif şəhərlərindən İŞİD zülmündən qaçaraq Türkiyə sərhədinə yığışmış insanlardır. Onlar bəşəriyyətin "qarayara"sına çevrilmiş bu terror təşkilatının törətdiyi vəhşətlərdən danışır, insanları onların cənnət vədinə inanmamağa çağırırlar.

Xatırladaq ki, "İŞİD həqiqətləri: reallıqlar, miflər" kitabı və "Qara bayraqlı qaranlıq" sənədli filmi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə hazırlanıb.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi: Falçılara və cadugərlərə qarşı qanun sərtləşdirilməlidir



Azərbaycanda özlərini “həkim, parapisxoloq” adlandıran bir neçə şəxsə qarşı dələduzluq maddəsi ilə cinayət işi başlanıb. Bu barədə Trend-ə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Hüquq və qeydiyyat şöbəsinin müdiri vəzifəsini icra edən Bəhruz Müslümov bildirib. O qeyd edib ki, cadugərliyə, falçılığa, yalançı mollalığa və s. qarşı mübarizədə ən effektli yol maarifləndirmədir: "Bu səbəbdən Təhsil Nazirliyi və digər qurumlarla maarifləndirmə tədbirlərinin aparılması ilə bağlı müxtəlif layihələrmiz var və bunlar icra olunmaqdadır. Eyni zamanda, bu məsələlərə inzibati yolla da müdaxilə edilməli olduğunu düşünürük".

B.Müslümov deyib ki, cadugərlik və falçılıqla bağlı problem təkcə Azərbaycanda deyil, digər ölkələrdə də mövcuddur: "Məsələn, Tacikistanda bu yaxınlarda Cinayət Məcəlləsinə yeni dəyişiklik təsdiq edildi. Dəyişikliyə görə, əgər falçılar, cindarlar əvvəllər sadəcə müəyyən miqdarda cərimə edilirdilərsə, bundan sonra 7 ilə qədər müddətdə azadlıqdan məhrum olunacaqlar. Anqlo-sakson hüququnun tətbiq edildiyi ölkələrdə şəxslər aldadıldığı halda bu barədə müvafiq qurumlara müraciət edirlər və onlara qarşı “fraud-dələduzluq” üzrə cinayət işi və ya bu şəxslərə qarşı məhkəmədə mülki qaydada iddia verə bilirlər. Təbii ki, bizim ölkənin qanunvericiliyində də mülki qaydada iddia qaldırmaq mümkündür və bu hal Cinayət Məcəlləsində nəzərdə tutulmuş “Dələduzluq” maddəsinin təsirinə düşür. Ölkəmizdə özlərini “həkim, parapisxoloq” adlandıran bir neçə şəxsə qarşı bu maddə ilə cinayət işi başlanılıb".

DQİDK rəsmisi bildirib ki, bu tipli adamlar çox yaxşı “aktyorlardır”: "Onlara müraciət edənlər aldadıldıqlarını anlamırlar və ya artıq anlayanda da həmin şəxslərin yerini müəyyənləşdirmək çətin olur. Bəzi hallarda isə bu şəxslər qapı-qapı gəzir və insanları onlara məxsus ilahi qüvvənin olduğuna inandırmağa çalışırlar. İstərdik ki, İnzibati Xətalar Məcəlləsinə bununla bağlı maddə əlavə edilsin. Qanuna ediləcək yeni əlavə üzərində hazırda çox ciddi iş aparılır. Layihə müvafiq rəylər alındıqdan sonra baxılması üçün Prezident Administrasiyasına göndəriləcək".

B.Müslümov əlavə edib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət siyasətində maarifləndirmə işi hazırda cənab Prezidentimiz İlham Əliyev tərəfindən çox böyük uğurla aparılır. Ölkəmizdə yeni, dünya standartlarına uyğun universitetlər, məktəblər yaradılır və mövcud olanların maddi texniki bazası möhkəmləndirilir. Bu faktdır ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" əsasında minlərlə gənc xarici ölkələrin nüfuzlu təhsil müəssisələrində pulsuz təhsil alırlar: "Maarifləndirmə sahəsində bu qədər böyük işlər aparılmasına baxmayaraq, təəssüflər olsun ki, əhalinin bəzi təbəqəsi hələ də falçılığa, cadugərliyə, cindarlığa inanır. Bu cür insanların sadəlövhlüyündən istifadə edən şəxslər onları müxtəlif bəhanələrlə aldadır, guya gələcəkdən xəbər verməklə, cadu yolu ilə hansısa bir problemi həll etmək bəhanəsi ilə pullarını mənimsəyirlər. Dəfələrlə biz bu qəbildən olan müxtəlif problemlərlə qarşılaşmışıq. Təəssüflər olsun ki, belə insanların toruna düşənlər, adətən, cəmiyyətin savadsız təbəqəsi olur. Savadlı adamın falçının yanında nə işi var?"



# “Time” jurnalı: Azərbaycan Yaxın Şərqdə tolerantlıq vadisidir




ABŞ-ın Kaliforniya ştatında yerləşən Sinay məbədinin üzvlərindən ibarət 50 nəfərlik heyət 30 oktyabr–4 noyabr tarixlərində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin “Azərbaycan multikulturalizminə səyahət” layihəsi çərçivəsində ölkəmizdə səfərdə olub. Nümayəndə heyətinə Sinay məbədinin böyük ravvini Devid Volp rəhbərlik edirdi. Səfərin əsas məqsədlərindən biri Dağ yəhudilərinin sinaqoquna Müqəddəs Tövratın bağışlanması idi. Səfər çərçivəsində qonaqlar Quba Soyqırımı Memorialını ziyarət edib, Qırmızı Qəsəbədə olub, Xarici İşlər Nazirliyində, Qafqaz Müsəlmanları İdarəsində və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində görüşlər keçiriblər.

Səfərlə bağlı nümayəndə heyətinin rəhbəri Devid Volpun ABŞ-da çıxan “Time” jurnalında “Azərbaycan Yaxın Şərqdə tolerantlıq vadisidir” adlı məqaləsi dərc edilib.

Müəllif yazır: “Keçən həftənin şənbə günü səhər tezdən mən öz icmamın 50 üzvü ilə çox nadir bir təcrübə yaşadıq: biz birbaşa sinaqoqa getdik.

Bu, o qədər də əlamətdar olmayan bir hadisə kimi qəbul edilə bilər, ancaq dünyanın bir çox ölkələrinə səyahət edən hər bir kəs bilir ki, sinaqoqları ziyarət etmək elə də asan iş deyil. Dünyanın bir çox yerlərində sinaqoqlar sutkada 24 saat fəaliyyət göstərmir. Mənim təmsil etdiyim Los-Anceles sinaqoqunda da binanın mühafizə işçiləri buraya gələn maşınların yük yerlərini yoxlayırlar. Dəfələrlə olub ki, mən xarici yəhudi icmalarına məktublar yazaraq, o şəhərlərdə kimlərinsə sinaqoqu ziyarət etmələrinə icazə vermələrini xahiş etmişəm. Mən tez-tez bu barədə düşünmüşəm ki, anti-islam və antisemitizm əhval-ruhiyyələri gücləndirən mətləblər arasında bir fərq var. Bu da belə bir sadə faktla ifadə oluna bilər ki, məscidlər adətən mühafizə olunmur, əksər sinaqoqlar isə ciddi təhlükəsizlik tədbirləri ilə qorunur.

Bununla belə, bir müsəlman ölkəsinin şənbə günündə yəhudilər azad bir şəkildə sinaqoqa birbaşa daxil oldular və heç kim bu ziyarətçiləri nə sorğu-suala tutdu, nə də çantalarını yoxladı”.

Məqalədə deyilir ki, Azərbaycan əlamətdar istisnadır. Bir həftə əvvəl Qüds şəhərində bir İsrail diplomatı bizimlə görüşdə bu sözləri demişdi: “Mən İsveçdə başımda kipa ilə gəzməyə ehtiyat edirəm, amma Azərbaycanda yox. Azərbaycanda heç kəs buna görə sənə problem yaratmayacaq”. Mən bunu təsdiq edə bilərəm. Bakı küçələrində bir həftəyə yaxın kipa ilə gəzdim, nəzakət və mehribanlıqdan başqa bir qarşılıq görmədim. Bu, dünyada çox az rastlanan qeyri-adi bir nailiyyətdir. Azərbaycan başqa dini ənənələrin intişarını ehtiva edən iftixarlı və qədim tarixə malik bir ölkədir. Əhalisinin 90 faizini sünnilərlə şiə əksəriyyətli müsəlmanların təşkil etməsinə baxmayaraq, burada yəhudilər özlərini rahat və hörmətli vətəndaşlar kimi hiss edirlər. Bunu digər dini azlıqlar haqqında da demək olar.

D.Volp qeyd edir: “Bizim Azərbaycana səfərimizin əsas məqsədi Bakının dağ yəhudilərinə Tövrat təqdim etmək idi. Bu ölkədə yaşayan 30 min yəhudi arasında dağ yəhudilərinin min illər əvvəllərə gedib çıxan çox qədim bir tarixi var.

Ziyarətimizin əlaqələndiricisi Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev idi. Biz səfərimiz zamanı Quba rayonunun Qırmızı Qəsəbəsində olduq. Sovet hakimiyyəti qurulana qədər “Yəhudi kəndi” adlanan Qırmızı Qəsəbədə hazırda 4000-ə yaxın yəhudi yaşayır. Bu, İsrailin hüdudlarından kənarda olan ən böyük yəhudi şəhərlərindən biridir. Biz yay və qış sinaqoqlarında olduq, dualar etdik, küçələri gəzdik və Qafqazda yerləşən bu kiçik dövlətdə yəhudilərin necə rahat həyat tərzi sürdüklərinə heyran olduq”.

Məqalədə vurğulanır ki, Azərbaycanın İsraillə yaxın münasibətləri var. Dövlət rəsmiləri tez-tez ölkədən-ölkəyə səfər edirlər (Təl-Əvivdən Bakıya uçan təyyarədə yanımda İsrailin Baş nazirinin keçmiş müavini Aviqdor Liberman əyləşmişdi. İsrailin Baş naziri və Prezidenti də Azərbaycanda olublar).

Azərbaycandakı mövcud tolerantlıqdan bəhs edilən yazıda bildirilir ki, dünyanın o biri hissəsində tolerantlığa qarşı güclü təzyiqlər var.

Oxucuların diqqətinə çatdırılır ki, yəhudilərin bu həyatının qəbul edilməsi görüntü üçün deyil. “Bütün Qafqazın şeyxi Allahşükür Paşazadə ilə görüşlərimizdə o, istər ölkədəki, istərsə də Amerikadakı yəhudi xalqı ilə dostluğundan və qardaşlığından danışdı. O, dəfələrlə xristianların, müsəlmanların və yəhudilərin, eyni zamanda, digər xalqların birlikdə yaşamasının digər xalqlar üçün nümunə ola biləcəyindən danışdı”, - deyə Devid Volp qeyd edir.

Sinay məbədinin böyük ravvini yazır: “Beş gün ərzində bizim qrupumuz ölkə ərazisində səyahət edərək rəsmi şəxslərlə, incəsənət nümayəndələri ilə və yerli yəhudilərlə görüşlər keçirdi. Bizə koşer yeməyi verdilər. Biz yəhudi icmasının nümayəndələri ilə ayrılıqda söhbət etdik. Azərbaycanın görkəmli şəxsləri ilə eyni qəbiristanlıqda dəfn edilmiş Azərbaycanın Milli Qəhrəmanı, yəhudi xalqının nümayəndəsinin məzarını ziyarət etdik. Bundan başqa, Bakının böyük bir meydanında hicabı atan qadın heykəlini gördük. Bu, “Azad Qadın” heykəli adlanır”.

Bildirilir ki, dözümsüzlüyün artdığı və inkişafın böyük təhlükə altında olduğu bu dünyada Azərbaycandan öyrəniləsi çox şey var. Bu kiçik, düşmənçilik yox, dostluq, sülh istəyən ölkənin gördüyü işləri nəzərə alıb qiymətləndirməyin əsl vaxtıdır.

# Sədi Axundzadə: "Allaha şükür edən qövm hər zaman Allahın qayğı və lütfü ilə mükafatlanar"

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Cənub bölgəsi üzrə qazısı Hacı Sədi Axundzadə ilə müsahibə**

**- Hacı, dini radikalizm və onun fəsadları son dövrlər dünyanın əsas müzakirə mövzularındandır. Sizcə, dini radikalizmlə necə mübarizə aparmaq lazımdır və bu yöndə hansı vasitələrdən istifadə edilməsi daha yaxşı olardı?**

- Bismillahir-rəhmanir-rəhim! Məncə əsl İlahi, səmavi dinlərdə radikalizm ola bilməz. Xüsusən İslam dini sülh, barış, qardaşlıq dinidir, mən onda zərrə qədər də radikalizm görməmişəm. Qurani-Kərimin "ən-Nəhl" surəsinin 125-ci ayəsində buyurulur: "Ya rəsulum, insanları Rəbbin yoluna hikmətlə, gözəl öyüd-nəsihət (moizə) ilə dəvət et və onlarla ən gözəl tərzdə ( şirin dillə, mehribanlıqla, əqil səviyyəsinə müvafiq şəkildə) mübahisə et...". Göründüyü kimi, Qurani-Kərim səninlə eyni yolda, eyni fikirdə olmayanları öldürməyi buyurmayıb. Buna görə də müsəlmanlar görüşərkən salam verirlər, yəni bir-birinə sülh, dinclik, əmin-amanlıq diləyirlər. Başqa dinlər üçün and içə bilmərəm, amma radikalizm anlayışının əsl İslama və onun mənsublarına qətiyyən aidiyyəti yoxdur. Yüz milyona yaxın insanın ölümü ilə nəticələnən iki dünya müharibəsi olub ki, onları da müsəlmanlar başlamayıb və aparıcı tərəf olmayıblar. İslam Peyğəmbərinin (s) iştirak etdiyi müharibələrin birində təslim olan və "Kəlmeyi-şəhadət" söyləyən düşmən əsgərini öldürən müsəlman döyüşçünü Peyğəmbər (s) çox kəskin şəkildə ittiham edib və qınayıb. Bu mənada əsl müsəlman radikal ola bilməz! Əsl müsəlman müdrik və səbirli olandır. Amma bu gün ən çox müsəlmanı vurur, evini, şəhərini, küçəsini bombalayırlar. Qərbdə kimsə bunu görmür. İmam Cəfər Sadiqdən (ə) hədis var: "Məzlumu vura-vura zalım etməyin!" Bəzən özünü müsəlman adlandıran bir şəxs radikallaşırsa, o, artıq dindən çıxmış hesab olunur və bunun günahı təkcə onda deyil, həm də əsl terrorla məşğul olan Qərb dairələrindədir. Qərbdə oturub Şərqdə aranı qarışdıran o qədər iblis xislətli qüvvələr var ki! Müsəlmanları radikal, terrorçu, zalım göstərmək üçün İŞİD və vəhhabilik kimi İslama yad qüvvə yaratmış və ona dəstək vermişlər. İnsan təkcə namaz qılmaqla müsəlman olmur! Əsl müsəlman üsulid-dini, firuid-dini qəbul və ona əməl edən şəxsdir! İslamın təməl prinsiplərində radikalizmdən əsər-əlamət yoxdur. Amma İslam acizlik, məzlumluq, qorxaqlıq dini də deyil. O, müsəlmanı haqsızlıqlara qarşı mübarizəyə çağırır. İmam Hüseyn (ə) də cihad etdi, amma bu mübarizə başqasının elinə, yurduna hücuma səsləmir, namus, izzət, İslam tor¬paqları düşmən tapdağı altında olduqda düşmənə qarşı mübarizəyə səsləyir. Qarabaq torpaqları düşmən tapdağı altında



ikən bəzi nadan gənclər "ölüm maşını"na yem olmaq üçün Su¬riyaya gedirlər. Dini radikalizmin qarşısı dini maarifləndirmə yolu ilə alına bilər. Gəlin görək bizim gənclər dini bilgiləri haradan əldə edirlər: ya sosial şəbəkələr vasitəsilə, ya da xəlvəti məclislərdə, qonşu ölkələrdən maliyyələşən bəzi dindarlardan. Hər ikisinin zərərli tərəfləri çoxdur. Biz bunu görürük, ölkə bunu yaşayır, amma kimsə dini maarifləndirmə işinə orta məktəbdən başlanılmasına çalışmır. Sonra da ürək ağrısı ilə düşünürük ki, gənclərimiz nə üçün vəhhabi oldu, Suriyaya getdi, İŞİD-ə qoşuldu..?

**- Müstəqilliyini bərpa etdikdən hazırkı dövrədək ölkəmizdə multikultural vəziyyəti necə dəyərləndirərdiniz?**

- Bilmirəm, Azərbaycanın havasındandır, suyundandır, torpağındandır-nədəndir, buranın yerli və köklü xalqı müdrikdir və deməli, səbrlidir, dözümlüdür. Bizdə "səbir Allahın adıdır" ifadəsi çox məşhurdur. Səbirli toplumlar hamıya qarşı dözümlü, mehriban, ürəyiaçıq və əliaçıq olur. Nahaq yerə azərbaycanlıları qonaqpərvər adlandırmırlar. Azərbaycan xalqı tarixən multikultural prinsiplərlə yoğrulmuşdur. Burada digər xalqların və dinlərin mənsubları ayrı-ayrılıqda, icma və toplu şəkildə deyil, bir-biri ilə qonşuluqda yaşayırlar. Müsəlmanların, xristianların və yəhudilərin bu qədər səmimi yaşadığı ikinci ölkə tapmazsan. Azərbaycan xalqı heç vaxt öz ərazisində yaşayan nə azsaylı, nə də gəlmə xalqlara qarşı ayrı-seçkilik aparmamışdır. Dünyanın çox az ölkəsində bu qədər fərqli din və xalqların nümayəndələrinin birlikdə və mehriban yaşadığının şahidi olarsan. Allah bu gözəl keyfiyyəti xalqımızdan əsirgəməsin! Amin!

**- Amma dünyada tolerantlıq məkanı kimi tanınan Azərbaycanda son vaxtlar aranı qarışdırmaq istəyənlər meydana çıxıb. Belə bir vəziyyətdə ölkə dindarlarının, dini icmaların üzərinə nə kimi məsuliyyət düşür? Sizin rəhbərlik etdiyiniz dini icma və digər dini icmalar bu sahədə nə kimi işlər görməlidirlər?**

- Bilirsiniz, digər ölkələri sarsıtmış sosial və siyasi təfriqələr üçün Azərbaycanda zəmin yoxdur. Amma bu o demək deyil ki, rahat oturmalı, hər şeyi Allahın ümidinə buraxmalıyıq. Biz indi dini təbliğat işinə daha böyük diqqət göstərməli, KİV-in imkanlarından da geniş istifadə etməliyik. Cümə namazları bu sahədə çox yaxşı imkandır. Astara rayonunun Pensər kəndində cümə namazları bir həftənin cümə günü şiə, növbəti həftənin cümə günü isə sünni məscidində qılınır, moizələr oxunur. Məhərrəmlik ayında Lənkəran şəhərinin Böyük Bazar Cümə məscidinə sünnilər, hətta xristianlar da toplaşır. Məncə, ölkənin digər məzhəblərin dini icmaları da bir-birinə tərəf belə addım atmalıdırlar. Dirilik birlikdədir. Biz bu birliyi qorumalı, yaymalı və inkişaf etdirməliyik.

**- Hacı, təəssüf ki, bu gün bir sıra müsəlman ölkələrində məzhəb ayrı-seçkiliyi zəminində problemlərin davam etdiyini görürük. Sizcə, özlərinin əsas devizi, ana maddəsi sülh, birlik və bərabərlik olan bir dinin mənsubları niyə bir araya gələ bilmirlər?**

- Mən belə düşünmürəm. Dünya dinləri arasında mənsubları ən çox bir araya gələn elə müsəlmanlardır. Bu fikri sadəcə, bizim düşüncəmizə yeridib, bir-birimizə qarşı ögeyləşdirmək istəyən kənar qüvvələr var. Heç bir dinin Həcc, Kərbəla, Məşhəd və digər müqəddəs yerlərə kütləvi axın tendensiyası yoxdur. Təkcə Həcc ziyarətinə hər il dünyanın müxtəlif ölkələrindən milyonlarla zəvvar gedir. Hansı dinin ayini üçün bunun yüzdəbiri qədər insan bir yerə toplaşır? Xüsusən bizdə məzhəb fərqliliyi zərrə qədər də hiss olunmur.

**- Bu gün Azərbaycan dünya dövlətləri tərəfindən nümunəvi tolerantlıq məkanı kimi qəbul olunur. Bəs bir vətəndaş, dindar və dini icma rəhbəri kimi Siz bu barədə nə düşünürsünüz?**

- Azərbaycanın tolerantlıq məkanı kimi qəbul olunmasının səbəbi odur ki, burada dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir. Bu gün dünyanın əksər ölkələrində milli və dini zəmində iğtişaşlar yaşanır. Azərbaycanda hər cür proseslər tam nəzarət altındadır. Ölkə başçısı, cənab Prezident İlham Əliyevin bütün dini icmaların fəaliyyəti və inkişaf etmələri üçün yaratdığı şərait, dini ibadət yerlərinin tikintisi, bərpası, təmiri və yenidən qurulması ilə bağlı sərəncamlar verməsi, hər il Azərbaycanda yaşayan müsəlmanlara, xristianlara və yəhudilərə müqəddəs bayramlar münasibəti ilə təbriklər ünvanlaması, Fitr bayramını müsəlmanlarla birlikdə keçirməsi və s. bu kimi addımlar dövlət-din münasibətlərinin ən yüksək səviyyədə qurulduğunun göstəricisidir. Bu mənada dünyanın digər dövlətlərinin Azərbaycandan öyrənməli olduqları çox məsələlər var. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bütün dini icmalara həssaslıqla yanaşır, tez-tez müxtəlif layihələr keçirir. Qafqaz Müsəlmanları İdarəsi isə dinlə bağlı problemlərin həlli üçün əlindən gələni edir. Xüsusən bütün Qafqazın Şeyxi, bütün dindarların ağsaqqalı Hacı Allahşükür Paşazadənin bu sahədə xidmətləri böyükdür. Bunu Azərbaycanda fəaliyyət göstərən bütün dini icma rəhbərləri də əminliklə söyləyirlər.

**- Son vaxtlar müxtəlif radikal dairələrin din pərdəsi altında ölkəmizdə qarışıqlıq yaratmağa səy göstərdikləri də müşahidə olunur. Siz dindarlarla mütəmadi ünsiyyətdəsiniz, onların bu cür məsələlərə münasibəti necədir?**

- Elə adamları sadalamağa başlasaq, heç bircə əlimizin barmaqları da tam bükülüb qurtarmaz. Radikallığa meyillilərin çoxu, əslində, macəra axtaranlardır. Gündəmdə qalmaq, diqqəti cəlb etmək, öz timsallarında əzabkeş obrazı yaratmaq, fanatiklərin rəğbətini qazanmaq istəyənlər bütün dövrlərdə olub. İnsan ya müsbət, ya da mənfi əməlləri ilə diqqəti cəlb edə bilər. Birincini bacarmaq böyük ağıl, bilik və iman tələb edir. Bəzi namaz qılan şəxslər ikinci yolu daha asan hesab edir və əzabkeş dindar roluna girirlər. Təbii ki, bizim dini icmanın üzvləri və cümə xütbələrinə toplaşan möminlər bu kimi adamların ucuz şoularına dəstək vermirlər. Çünki biz cümə xütbələrimizdə bütün aktual sualları cavablandırmağa çalışırıq.

**- Sizcə, belələrinin ölkəmizdə sosial bazası mövcuddurmu və necə düşünürsünüz, bu kimi hallar Azərbaycanda hər sahədə mövcud olan hazırkı sabitliyi, xalqımızın əsrlərdir sahib olduğu, bu günədək qoruyub saxladığı tolerantlıq, multikulturalizm və dövlətçilik ənənəsinə xələl gətirə bilərmi?**

- Əlbəttə yox! Bu kimi hallar o qədər az və elə zəif işartı kimidir ki, onun barəsində bu qədər ciddi və qlobal düşünməyə dəymir. Xalqımız sahib olduğu o yüksək mənəvi keyfiyyətlərini hər belə zəif işartılara görə dəyişsəydi, bu dəyərlərini bugünədək gətirib çıxara bilməzdi. Azərbaycanda siyasi sabitlik də kifayət qədər möhkəmdir və iki-üç nəfərin nəsə deməsi bu möhkəmliyi əsla sarsıda bilməz!

**- Sizcə, cənub bölgəsindəki dindarlığın digər bölgələrdən fərqli cəhətləri nədən ibarətdir?**

- Əhalimizin böyük əksəriyyəti İslam inancını qəbul etmişdir. Sovetlər döv¬ründə Lənkərana hər kəs gedib-gələ bilmirdi. Sərhəd zonası olduğu üçün Biləsuvarda xüsusi hərbi post qurulmuşdu. Bu ərazinin uçotunda olmayan şəxsləri buraya buraxmırdılar. Nəticədə, cənub bölgəsinə daxil edilən rayonlar öz unikal¬lığını, milli və dini dəyərlərini daha çox qoruyurdu. İran İslam Respublikasına yaxın ərazidə yerləşməsinin də müəyyən dini təsiri vardı. Sovet hökuməti qalın sərhəd məftilləri çəkdikdən sonra Cənubi Azərbaycanda bizim rayon adamlarının qohum-əqrəbası qalmışdı. Buna görə də bəzi insanlar İran radiosunun səsindən təsirlənir, duyğu¬lanırdı. Hər tərəfdən qapalı məkan olduğu üçün cənubluların dindən başqa tapına biləcəkləri ikinci inanc yeri qalmamışdı. Bu mənada indi də cənublular bir qədər güclü iman sahibi kimi görünürlər. Əslində isə ölkəmizin bütün müsəlmanları İslama qəlbən bağlıdırlar. Buna görə də xalqımızda şükranlıq hissi daha güclüdür. Allaha şükür edən qövm hər zaman Allahın qayğı və lütfü ilə mükafatlanar. Bizi qoruyub saxlayan bir səbəb də budur. Vəssalam aleykum və rəhmətullahi-bərəkətuh!

***"Cəmiyyət və Din"***

Cəmiyyət və Din
№ 11 (292) / NOYABR 2015-ci il

# Terrorizmlə mübarizədə arılardan istifadə oluna bilər

Güclü iybilmə qabiliyyətinə malik bal arıları İtaliya təhlükəsizlik qüvvələri tərəfindən terror təhlükəsinin qarşısının alınması üçün istifadə oluna bilər.

ANSA xəbər agentliyinin məlumatına görə, daha öncə ABŞ-da və Böyük Britaniyada aparılmış tədqiqatlar partlayıcı qurğuların aşkarlanmasında arılardan istifadənin mümkünlüyü ilə bağlı nəticəyə gəlib. Bu araşdırma İtaliyada da maraqla qarşılanıb. Belə ki, artıq bu ölkədə antiterror tədbirlərində yardımçı qüvvə olaraq "arı ordusu" yetişdiriləcək.

Florensiyada fəaliyyət göstərən enerji və ətraf mühit üzrə tədqiqatlar mərkəzinin nümayəndəsi Marino Quaranta bildirib ki, bal arıları mükəmməl iybilmə qabiliyyətləri ilə hava limanlarında, dəmiryol stansiyalarında və bu kimi digər məkanlarda partlayıcı qurğuların aşkarlanması və mümkün terror cəhdlərinin qarşısının alınması üçün istifadə oluna bilər.

İtaliyanın Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi Bolonyada bir neçə il bundan əvvəl müvafiq istiqamətdə başladılmış "Apiboom" layihəsinə dəstək olub.

# İkinci Dünya müharibəsi dövrünə aid maraqlı faktlar aşkarlanıb

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) rəyasət heyəti aparatının Azərbaycanda elmi irsin toplanması və sistemləşdirilməsi mərkəzinin rəhbəri, tarix elmləri doktoru Zemfira Hacıyeva AMEA-da 1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbənin 70 illiyinə həsr olunan tədbirlər çərçivəsində araşdırmalar aparıb.

Nəticədə aşkara çıxan unikal tarixi faktlar Azərbaycanı bir daha tolerantlıq, humanizm və multikulturalizmin mövcud olduğu bir ölkə kimi təsdiqləyib.

Həmin nadir materialların araşdırılması və təhlili zamanı 1940-cı illərin əvvəllərinə aid kinoxronikada İspaniyadan Azərbaycana kimsəsiz uşaqların gətirildiyi müəyyənləşdirilib. İkinci Dünya müharibəsinin ağır illərində Hitler Almaniyasının işğalına məruz qalan İspaniyadan olan uşaqlara Azərbaycan torpağında sığınacaq verilib.

Xalq şairi Rəsul Rzanın sözləri ilə başlanan tarixi kinoxronikanın məlumatına görə, 500 mindən çox ispan öz Vətənini tərk etmək məcburiyyətində qalıb. Nadir kadrlarda "Feliks Dzerjinski" adına buxarlı gəmidə Azərbaycana gətirilən minlərlə ispaniyalı uşağın görüntüləri əks olunub.

Azərbaycan xalqı müharibə illərində ağır günlər keçirməsinə baxmayaraq qlobal səviyyədə multikulturalizm, tolerantlıq, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşma dəyərlərinin aşılanması prosesinə əvəzsiz töhfələr verib.

# Dünyanın ən kiçik şəhəri




Dünyanın ən kiçik şəhərləri siyahısında birinci yeri ABŞ-ın Buford şəhərciyi tutur. Burada cəmi bir nəfər yaşayır. Həmin şəxs eyni zamanda şəhərin meri vəzifəsini icra edir.

Əhalisi 17 nəfərdən ibarət olan Xorvatiyanın Xum şəhəri siyahıda ikinci yerdə, əhalisi 20 nəfər olan Çexiyanın Rabşteyn şəhəri üçüncü yerdə qərarlaşıb. Dördüncü yerdə isə Bolqarıstanın Melnik şəhəridir. Bu şəhərdə nisbətən çox adam - 390 nəfər yaşayır.

Reytinqdə beşinci yeri Rusiyanın Çekalin şəhəri tutur. Siyahıyaalmaya görə, burada 992 nəfər qeydə alınıb. Halbuki 1956-cı ildə bu şəhərdə 2008 nəfər yaşayıb.

## Yadigar söz

**Karl Qustav Yunq**
*(isveçrəli psixoloq)*

**Fanatizm basdırılmış şübhələrin əlamətidir. Əgər insan haqlı olduğuna arxayındırsa, qarşı tərəfin fikirlərini zərrə qədər qəzəb nümayiş etdirmədən müzakirə etməyə hazır olmalıdır. Etirazında qəzəb varsa, deməli, öz dediklərinə inanmır.**

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh namazı | Gün çıxır | Zöhr namazı | Əsr namazı | Axşam namazı | İşa |
|---|---|---|---|---|---|---|
| 01 Dekabr | 06:28 | 07:43 | 12:33 | 15:19 | 17:31 | 18:52 |
| 02 Dekabr | 06:29 | 07:44 | 12:33 | 15:19 | 17:31 | 18:52 |
| 03 Dekabr | 06:30 | 07:45 | 12:34 | 15:19 | 17:31 | 18:52 |
| 04 Dekabr | 06:31 | 07:46 | 12:34 | 15:18 | 17:30 | 18:52 |
| 05 Dekabr | 06:32 | 07:47 | 12:35 | 15:18 | 17:30 | 18:51 |
| 06 Dekabr | 06:32 | 07:48 | 12:35 | 15:18 | 17:30 | 18:51 |
| 07 Dekabr | 06:33 | 07:49 | 12:35 | 15:18 | 17:30 | 18:51 |
| 08 Dekabr | 06:34 | 07:50 | 12:36 | 15:18 | 17:30 | 18:51 |
| 09 Dekabr | 06:35 | 07:51 | 12:36 | 15:18 | 17:30 | 18:52 |
| 10 Dekabr | 06:36 | 07:51 | 12:37 | 15:18 | 17:30 | 18:52 |
| 11 Dekabr | 06:37 | 07:52 | 12:37 | 15:18 | 17:30 | 18:52 |
| 12 Dekabr | 06:37 | 07:53 | 12:38 | 15:18 | 17:30 | 18:52 |
| 13 Dekabr | 06:38 | 07:54 | 12:38 | 15:18 | 17:30 | 18:52 |
| 14 Dekabr | 06:39 | 07:55 | 12:39 | 15:19 | 17:30 | 18:52 |
| 15 Dekabr | 06:39 | 07:55 | 12:39 | 15:19 | 17:31 | 18:53 |
| 16 Dekabr | 06:40 | 07:56 | 12:40 | 15:19 | 17:31 | 18:53 |
| 17 Dekabr | 06:41 | 07:57 | 12:40 | 15:19 | 17:31 | 18:53 |
| 18 Dekabr | 06:41 | 07:58 | 12:41 | 15:20 | 17:32 | 18:54 |
| 19 Dekabr | 06:42 | 07:58 | 12:41 | 15:20 | 17:32 | 18:54 |
| 20 Dekabr | 06:43 | 07:59 | 12:42 | 15:20 | 17:32 | 18:55 |
| 21 Dekabr | 06:43 | 07:59 | 12:42 | 15:21 | 17:33 | 18:55 |
| 22 Dekabr | 06:44 | 08:00 | 12:43 | 15:21 | 17:33 | 18:55 |
| 23 Dekabr | 06:44 | 08:00 | 12:43 | 15:22 | 17:34 | 18:56 |
| 24 Dekabr | 06:45 | 08:01 | 12:44 | 15:22 | 17:34 | 18:56 |
| 25 Dekabr | 06:45 | 08:01 | 12:44 | 15:23 | 17:35 | 18:57 |
| 26 Dekabr | 06:45 | 08:02 | 12:44 | 15:23 | 17:35 | 18:57 |
| 27 Dekabr | 06:46 | 08:02 | 12:45 | 15:24 | 17:36 | 18:58 |
| 28 Dekabr | 06:46 | 08:02 | 12:46 | 15:25 | 17:37 | 18:59 |
| 29 Dekabr | 06:47 | 08:03 | 12:46 | 15:25 | 17:37 | 18:59 |
| 30 Dekabr | 06:47 | 08:03 | 12:46 | 15:26 | 17:38 | 19:00 |
| 31 Dekabr | 06:47 | 08:03 | 12:47 | 15:27 | 17:39 | 19:01 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## ELAN

Lerik rayonu Piran kənd məscidi dini icmasının (1308Le1-497 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 14.10.2015-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

* * *

Lənkəran şəhər dini icmasının (1306Lə1-339 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 15.10.2015-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

* * *

Hacıqabul şəhər "Hacı Yadulla" məscidi dini icmasının (1308H1-461 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 15.10.2015-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

## NO COMMENT



Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
Qaynar xətt: qaynar_xett@scwra.gov.az
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 124

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894